**“Tikinti obyektlərinin elektrik şəbəkəsinə qoşulması və ya əlavə enerji (güc) alması Qaydası”nın təsdiq edilməsi və Azərbaycan Respublikası Nazirlər Kabinetinin “İstehlakçıların elektrik enerjisi (gücü) alması üçün texniki şərtlərin verilməsi və enerji təchizatı şəbəkəsinə qoşulması Qaydaları”nın təsdiq edilməsi haqqında” 2013-cü il 27 avqust tarixli 234 nömrəli və “Məişət abonentlərinin mövcud və ya inşa ediləcək tikinti obyektlərinin elektrik enerjisi (gücü) alması (mövcud 0,4 kV-luq şəbəkədən) üçün texniki şərtlərin, layihə sənədlərinin hazırlanması və verilməsi, habelə enerji təchizatı şəbəkəsinə qoşulması Qaydası”nın təsdiq edilməsi haqqında” 2018-ci il 24 iyul tarixli 326 nömrəli qərarlarının ləğv edilməsi barədə**

# AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

“Elektroenergetika haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2022-ci il 27 dekabr tarixli 773-VIQD nömrəli Qanununun tətbiqi və “Elektroenergetika haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 13 iyun tarixli 723 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 8 fevral tarixli 2034 nömrəli Fərmanının 2.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “Tikinti obyektlərinin elektrik şəbəkəsinə qoşulması və ya əlavə enerji (güc) alması Qaydası” təsdiq edilsin (əlavə olunur).

2. Müəyyən edilsin ki:

2.1. tikinti obyektlərinin elektrik şəbəkəsinə qoşulması və ya əlavə enerji (güc) alması məqsədilə texniki şərtlərin və enerji təchizatı layihəsinin hazırlanması “ASAN Kommunal” mərkəzləri yaradılmadığı regionlarda bu mərkəzlər yaradılanadək “ASAN xidmət” mərkəzləri vasitəsilə həyata keçirilir;

2.2. Kommunal Xidmətlər Vahid İnformasiya Sistemi fəaliyyətə başlayanadək “Tikinti obyektlərinin elektrik şəbəkəsinə qoşulması və ya əlavə enerji (güc) alması Qaydası”nda həmin sistem vasitəsilə həyata keçirilməsi nəzərdə tutulan prosedurlar “Azərişıq” ASC tərəfindən yaradılmış informasiya sistemi, habelə birbaşa, poçt və ya elektron poçt vasitəsilə həyata keçirilir.

3. “İstehlakçıların elektrik enerjisi (gücü) alması üçün texniki şərtlərin verilməsi və enerji təchizatı şəbəkəsinə qoşulması Qaydaları”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 27 avqust tarixli 234 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 8, maddə 1032; 2014, № 1, maddə 69; 2016, № 2 (II kitab), maddə 361, № 11, maddə 1951; 2017, № 7, maddə 1486; 2018, № 4, maddə 834, № 6, maddə 1366, № 11, maddələr 2455, 2461; 2020, № 6, maddə 813; 2022, № 2, maddə 171, № 4, maddə 373, № 5, maddə 570) ləğv edilsin.

4. “Məişət abonentlərinin mövcud və ya inşa ediləcək tikinti obyektlərinin elektrik enerjisi (gücü) alması (mövcud 0,4 kV-luq şəbəkədən) üçün texniki şərtlərin, layihə sənədlərinin hazırlanması və verilməsi, habelə enerji təchizatı şəbəkəsinə qoşulması

Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 24 iyul tarixli 326 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 7 (II kitab), maddə 1659; 2019, № 12, maddə 2067; 2020, № 6, maddə 812) ləğv edilsin.

5. Bu Qərar "Elektroenergetika haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 27 dekabr tarixli 773-VIQD nömrəli Qanununun tətbiqi və "Elektroenergetika haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 13 iyun tarixli 723 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 8 fevral tarixli 2034 nömrəli Fərmanının 3-cü hissəsində nəzərdə tutulmuş tariflərlə eyni gündə qüvvəyə minir.

~~6. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə"nin 3.5-ci bəndinə uyğun edilə bilər.~~[1]

**Əli ƏSƏDOV**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 3 noyabr 2023-cü il
№ 399

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2023-cü il 3 noyabr tarixli 399 nömrəli Qərarı ilə
**təsdiq edilmişdir.**

**Tikinti obyektlərinin elektrik şəbəkəsinə qoşulması və ya əlavə enerji (güc) alması**

# Q A Y D A S I

## 1. Ümumi müddəalar

1.1. Bu Qayda "Elektroenergetika haqqında" Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinin üçüncü hissəsinin ikinci cümləsinə uyğun olaraq hazırlanmışdır və aşağıdakı tikinti obyektlərinin elektrik enerjisi (gücü) alması üçün texniki şərtlərin, enerji təchizatı layihəsinin hazırlanması və verilməsi, habelə elektrik şəbəkəsinə qoşulması üzrə prosedur və tələbləri müəyyən edir:

1.1.1. məişət abonentlərinin və tələb olunan gücü *200* kVt-a qədər olan (*200* kVt da daxil olmaqla mövcud 0,4 kV-luq şəbəkədən) mövcud və ya inşa ediləcək tikinti obyektlərinin;[2]

1.1.2. tələb olunan gücü *200* kVt-a qədər (orta və yüksəkgərginlikli şəbəkədən) və *200* kVt-dan yuxarı olan mövcud və ya inşa ediləcək tikinti obyektlərinin;

1.1.3. enerji istehsalçılarının elektrik enerjisi istehsal edən tikinti obyektlərinin;

1.1.4. elektrik enerjisinin paylayıcılarının tikinti obyektlərinin.

1.2. Bu Qaydada istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

1.2.1. **texniki şərtlər** – elektrik enerjisi ilə təchiz edilməsi nəzərdə tutulan tikinti obyektinin elektrik şəbəkəsinə qoşulması ilə əlaqədar enerji təchizatı layihəsinin hazırlanmasına əsas verən, elektrik enerjisinin verilməsi ilə bağlı mühəndis-texniki parametrləri özündə əks etdirən texniki sənəd;

1.2.2. **xidmət nöqtələri** – kiçik və orta biznes evləri, "ASAN Kommunal" mərkəzləri;

1.2.3. **qoşulma nöqtəsi** – elektrik enerjisinin ötürülməsinə və paylanmasına təminat verən elektrik şəbəkəsinə elektroenergetika və tikinti obyektlərinin fiziki qoşulma yeri;

1.2.4. **qoşulma xidmətinə görə ödəniş** – bu Qaydanın 1.1.1-ci yarımbəndində nəzərdə tutulmuş tikinti obyektləri üçün layihələndirilmə, tikinti-quraşdırma işlərinə və mövcud 0,4 kV-luq şəbəkəyə fiziki qoşulmaya görə (istifadə olunan mal-materiallara çəkilmiş xərclər də daxil olmaqla), bu Qaydanın 1.1.2–1.1.4-cü yarımbəndlərində nəzərdə tutulmuş tikinti obyektləri üçün isə sifarişçi tərəfindən texniki şərtlərə uyğun olaraq layihələndirilmə və tikinti-quraşdırma işləri yerinə yetirildikdən sonra elektrik şəbəkəsinə fiziki qoşulmaya görə Azərbaycan Respublikası Tarif (qiymət) Şurasının müəyyən etdiyi məbləğ;

1.2.5. **qoşulma müqaviləsi** – tikinti obyektlərinin elektrik şəbəkəsinə qoşulması şərtlərini özündə əks etdirən və nümunəsi bu Qayda ilə müəyyən edilən müqavilə;

1.2.6. **ötürücü şəbəkə** – elektrik enerjisinin ötürülməsi üçün nəzərdə tutulmuş elektrik qurğularının, o cümlədən sistem əhəmiyyətli 110 kV və ondan yuxarı gərginlikli transformator yarımstansiyaları və elektrik verilişi xətlərinin məcmusu;

1.2.7. **enerji təchizatı şəbəkəsi** (bundan sonra – **ETŞ**) – elektrik enerjisinin paylanması üçün nəzərdə tutulmuş elektrik qurğularının, o cümlədən ötürücü şəbəkəyə aid olmayan 110 kV və ondan aşağı gərginlikli transformator yarımstansiyaları və elektrik verilişi xətlərinin məcmusu;

1.2.8. **elektrik şəbəkəsi** – elektrik enerjisinin ötürülməsi və paylanması üçün nəzərdə tutulmuş elektrik qurğularının məcmusu;

1.2.9. **sifarişçi** – elektrik şəbəkəsinə qoşulması nəzərdə tutulan tikinti obyektinə və (və ya) tikinti obyektinin yerləşdiyi (yerləşəcəyi) torpaq sahəsinə mülkiyyət və digər əşya hüquqları əsasında sahiblik edən şəxslər;

1.2.10. **tikinti obyektlərinin elektrik şəbəkəsinə qoşulması (texnoloji qoşulma)** – elektrik enerjisinin alqı-satqı münasibətlərinin yaranmasına qədər bağlanılmış qoşulma müqaviləsinə və verilmiş texniki şərtlərə uyğun olaraq, enerji təchizatı layihəsinin hazırlanması və tikinti-quraşdırma işlərinin görülməsi, tikinti obyektlərinin elektrik şəbəkəsinə fiziki qoşulması və qoşulma aktının tərtib edilməsinə dair göstərilən xidmət;

1.2.11. **fiziki qoşulma** – sifarişçinin elektrik qurğularını qidalandırması üçün çəkilmiş elektrik veriliş xəttinin texniki şərti verən müəssisənin təyin etdiyi qoşulma nöqtəsinə fiziki olaraq birləşdirilməsi;

1.2.12. **dövlət elektroenergetika müəssisəsi** (bundan sonra – **DEM**) – vahid mərkəzdən idarə olunan ötürücü şəbəkələr, onların dispetçer idarəetmə vasitələri və onun tabeliyində olan (strukturuna daxil olan) enerji istehsalçıları;

1.2.13. **balans mənsubiyyəti sərhədi** – enerji təchizatı müəssisəsi (bundan sonra – **ETM**) və ya DEM ilə sifarişçi arasında elektrik qurğularının balans mənsubiyyətini müəyyənləşdirən ayırma nöqtəsi;

1.2.14. **istismar məsuliyyəti sərhədi** – ETM və ya DEM ilə sifarişçi arasında elektrik qurğularının istismarına görə məsuliyyət sərhədini müəyyənləşdirən ayırma nöqtəsi;

1.2.15. **qoşulma aktı** – tikinti obyektinin elektrik şəbəkəsinə fiziki qoşulmasını təsdiq edən sənəd;

1.2.16. **mövcud 0,4 kV-luq şəbəkə** – tikinti obyektinin yerləşdiyi (yerləşəcəyi) ərazidən düz xətt üzrə 400 metrdən çox olmayan məsafədə (radiusda) quraşdırılmış 0,4 kV-luq transformatorun mövcud olduğu elektrik şəbəkəsi;

1.2.17. **Kommunal Xidmətlər Vahid İnformasiya Sistemi** (bundan sonra - **Sistem**) – kommunal sahədə idarəetmənin təmin edilməsi üçün zəruri olan məlumatların toplanıldığı və emal edildiyi informasiya sistemlərinin və ehtiyatlarının inteqrasiyasını, monitorinqlərin və analitik təhlillərin aparılmasını, proqnozların hazırlanmasını və qeyd edilən sahədə elektron xidmətlərin mərkəzləşdirilmiş qaydada göstərilməsini təmin edən informasiya sistemi;

1.2.18. **məişət abonenti** – mənzillərdə, yaşayış evlərində, qarajlarda, habelə Azərbaycan Respublikası Mənzil Məcəlləsinin 91-ci maddəsində nəzərdə tutulan xüsusi təyinatlı yaşayış sahələrində məişət ehtiyacları üçün elektrik enerjisindən istifadə edən fiziki şəxs;

1.2.19. **orta gərginlikli şəbəkə** – 6 - 35 kV gərginlikli elektrik şəbəkəsi;

1.2.20. **yüksəkgərginlikli şəbəkə** – 110 kV və yuxarı gərginlikli elektrik şəbəkəsi;

1.2.21. **elektrik enerjisinin paylayıcısı** – mülkiyyətində və ya istifadəsində olan paylayıcı şəbəkə ilə elektrik enerjisinin paylanmasını həyata keçirən hüquqi şəxs;

1.2.22. **enerji təchizatı layihəsi** – tikinti obyektindən elektrik şəbəkəsinə qoşulma nöqtəsinədək elektrik xətlərinin çəkilməsinə və (və ya) əlavə güc alınmasına dair layihə sənədləri;

1.2.23. **bərpa olunan enerji mənbələrinin ərazisi** – bərpa olunan enerji mənbələri potensialına malik olan və elektrik enerjisinin istehsalı üçün uyğun olan, Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilmiş torpaq sahəsi (su obyekti).

1.3. Hər bir sifarişçinin bu Qaydaya uyğun olaraq elektrik şəbəkəsinə qoşulmaq hüququ vardır. *Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinə əsasən tikintisinə icazə tələb olunan, lakin belə icazə alınmadan inşa edilmiş və ya tikilməkdə olan, habelə barəsində məlumatlandırma icraatı tətbiq olunan, lakin tikinti işlərinin başlanmasına həmin Məcəllənin 80.4-cü maddəsində nəzərdə tutulmuş əsas olmadan inşa edilmiş və ya tikilməkdə olan tikinti obyektlərinin elektrik şəbəkəsinə qoşulması qadağandır.*[3]

1.4. Bu Qayda qüvvəyə minənədək elektrik şəbəkəsinə qoşulmuş istehlakçıların əlavə güc alması və istehlakçının müraciəti ilə qoşulma nöqtəsinin dəyişdirilməsi və ya qoşulma nöqtəsində dəyişikliklərin edilməsi bu Qaydaya uyğun olaraq həyata keçirilir.

1.5. Tikinti obyektlərinin elektrik şəbəkəsinə qoşulması və ya əlavə enerji (güc) alması ETM və ya DEM ilə bağlanılmış qoşulma müqaviləsi əsasında həyata keçirilir və sifarişçiyə müqavilənin tərkib hissəsi olan texniki şərt verilir. Qoşulma müqaviləsində dəyişiklik edildikdə elektrik enerjisinin alqı-satqı müqaviləsində də müvafiq dəyişikliklər edilir. Tərəflər arasında qoşulma müqaviləsi ləğv edildikdə elektrik enerjisinin alqı-satqı müqaviləsi də ləğv edilmiş hesab olunur.

1.6. Texniki şərt Azərbaycan Respublikası Şəhərsalma və Tikinti Məcəlləsinin 11-ci maddəsi ilə müəyyən edilmiş tələblər və həmin Məcəllənin 20-ci maddəsində nəzərdə tutulmuş ərazi planlaşdırılması sənədləri nəzərə alınmaqla verilir.

1.7. Sifarişçi verilmiş texniki şərtin tələbləri ilə razı olmadıqda, inzibati və məhkəmə qaydasında şikayət verə bilər.

1.8. Texniki şərtin hazırlanması və verilməsi üçün haqq ödənilmir.

1.9. Sifarişçinin tikinti obyektinə əlavə güc alması (bu Qaydanın 2-ci hissəsində nəzərdə tutulmuş tikinti obyektlərinə əlavə güc verildiyi halda tikinti obyektinə bütövlükdə veriləcək gücün *200* kVt-dan çox olmaması şərtilə) tələb olunduqda ona verilmiş mövcud texniki şərtlər nəzərə alınmaqla əlavə gücün alınması üçün yeni texniki şərtlər verilir, lakin qoşulma xidmətinə görə ödəniş edilmir, yalnız əlavə gücün alınması üçün qoşulma nöqtəsinin dəyişdirildiyi və ya qoşulma nöqtəsində dəyişikliklərin edildiyi, eləcə də sifarişçinin müraciəti ilə qoşulma nöqtəsinin dəyişdirildiyi və bununla bağlı ETM tərəfindən layihələndirilmə və tikinti-quraşdırma işləri həyata keçirildiyi hallarda ona verilmiş mövcud texniki şərtlər nəzərə alınmaqla, bu Qaydaya uyğun olaraq yeni texniki şərtlər verilir və qoşulma xidmətinə görə ödəniş edilir.

1.10. Bu Qaydanın 1.25-ci bəndində nəzərdə tutulmuş hallar istisna olmaqla, texniki şərtlərin qüvvədəolma müddəti 2 (iki) il müəyyən edilir.

1.11. Bu Qaydanın 1.1.1-ci yarımbəndində nəzərdə tutulmuş tikinti obyektlərinin mövcud 0,4 kV-luq şəbəkəyə qoşulması üçün sifarişçi tərəfindən qoşulma xidmətinə görə ödəniş edilir və enerji təchizatı layihəsinin hazırlanması və tikinti-quraşdırma işləri ETM tərəfindən həyata keçirilir.

1.12. Bu Qaydanın 1.1.2–1.1.4-cü yarımbəndlərində nəzərdə tutulmuş tikinti obyektlərinin elektrik şəbəkəsinə qoşulması üçün sifarişçi tərəfindən qoşulma xidmətinə görə ödəniş edilir və enerji təchizatı layihəsinin hazırlanması və tikinti obyektindən elektrik şəbəkəsinə qoşulma nöqtəsinədək tikinti-quraşdırma işləri sifarişçinin seçdiyi podratçı (elektrik enerjisi istehsalçılarına münasibətdə yalnız podratçı), yaxud ETM və ya DEM tərəfindən sifarişçinin hesabına həyata keçirilir.

1.13. Qoşulma nöqtəsi tikinti obyektlərinə (enerji istehsalçılarının elektrik enerjisi istehsal edən tikinti obyektləri istisna olmaqla) ən yaxın məsafədə yerləşən yarımstansiyada, transformator məntəqəsində, elektrik veriliş xəttində, paylayıcı lövhədə müəyyən edilir. Enerji istehsalçılarının elektrik enerjisi istehsal edən tikinti obyektləri gərginlik səviyyəsi və elektrik şəbəkəsinin gücü baxımından uyğun olan və elektrik stansiyasına ən yaxın məsafədə yerləşən qoşulma nöqtəsinə (yarımstansiya və ya elektrik verilişi xətti (optimal qoşulma nöqtəsi) qoşulur. Başqa istehlakçının mülkiyyətində olan transformator məntəqəsində, elektrik xəttində və paylayıcı lövhədə olan qoşulma nöqtəsi yeni abonentlə həmin mülkiyyətçi arasında razılaşdırılmalıdır. Qoşulma nöqtəsində elektrik şəbəkəsinin gücləndirilməsi ilə bağlı tələb olunan bütün işlər texniki şərti verən müəssisə tərəfindən onun öz hesabına yerinə yetirilir (elektrik enerjisi paylayıcısının tikinti obyektinin elektrik şəbəkəsinə qoşulması halı istisna olmaqla). Elektrik enerjisi paylayıcısının tikinti obyektinin elektrik şəbəkəsinə qoşulması zamanı qoşulma nöqtəsində elektrik şəbəkəsinin gücləndirilməsi müvafiq elektrik enerjisi paylayıcısının vəsaiti hesabına həyata keçirilir.

1.14. Sifarişçinin sayğaclarla təchiz edilməsi, onların quraşdırılması və dəyişdirilməsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 2 fevral tarixli 18 nömrəli Qərarı ilə təsdiq edilmiş "Elektrik enerjisindən istifadə Qaydaları" (bundan sonra - **"Elektrik enerjisindən istifadə Qaydaları"**) ilə tənzimlənir.

1.15. Elektrik qurğularının balans mənsubiyyəti sərhədi qoşulma aktı ilə müəyyən edilir.

1.16. Elektrik qurğularının istismarına görə məsuliyyət sərhədi balans mənsubiyyəti sərhədi ilə müəyyən edilir.

1.17. Tikinti obyektinin elektrik şəbəkəsinə qoşulması məqsədilə müraciət edərkən sifarişçidən bu Qaydada nəzərdə tutulmayan məlumatlar və sənədlər tələb edilə bilməz.

1.18. Bu Qaydada nəzərdə tutulan müddətlərin axımı sifarişçinin müraciət etdiyi tarixdən hesablanır.

1.19. Sifarişçilərin elektrik enerjisi gücünə tələbatını təmin etmək üçün ETM tərəfindən verilmiş texniki şərtlər barədə məlumatlar Sistem vasitəsilə Enerji Məsələlərini Tənzimləmə Agentliyinə (bundan sonra - **Agentlik**) və DEM-ə, DEM tərəfindən verilmiş texniki şərtlər barədə məlumatlar isə Sistem vasitəsilə Agentliyə təqdim edilir.

1.20. Sifarişçinin tikinti obyekti birbaşa enerji istehsalçısının və ya istehlakçının şəbəkəsinə qoşulduğu halda sifarişçinin bu Qaydanın 2.1-ci və ya 3.1-ci bəndlərinə uyğun

olaraq ETM-ə təqdim etdiyi ərizəsinə və ya tikintiyə icazə verən orqandan (qurumdan) ETM-ə daxil olan sorğuya, enerji istehsalçısının və ya istehlakçının yazılı razılığı (fiziki şəxslərə münasibətdə notariat qaydasında təsdiq edilmiş yazılı razılığı) əlavə edilməlidir.

1.21. DEM və ETM elektrik enerjisinə artan tələbatı nəzərə alaraq elektrik şəbəkəsinin genişləndirilməsi və gücləndirilməsi üçün mütəmadi olaraq tədbirlər həyata keçirir.

1.22. Büdcə təşkilatlarının, dövlətin adından yaradılan publik hüquqi şəxslərin, paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin və aktiv istehlakçıların mövcud və ya inşa ediləcək tikinti obyektlərinin elektrik enerjisi (gücü) alması üçün texniki şərtlərin, enerji təchizatı layihəsinin hazırlanması və verilməsi, habelə elektrik şəbəkəsinə qoşulması üzrə prosedur və tələblər də bu Qayda ilə müəyyən edilir.

1.23. İşi səyyar xarakter daşıyan sifarişçilərin müvəqqəti tikililərinin yerinin dəyişdirilməsi ilə əlaqədar qoşulma nöqtəsi dəyişdirildikdə və elektrik şəbəkəsinə əvvəlki qoşulmada istifadə olunan mal-materiallar sifarişçilər tərəfindən təqdim edildikdə, bu Qaydanın 1.2.4-cü yarımbəndində nəzərdə tutulmuş qoşulma xidmətinə görə ödənişdən mal-materialların dəyəri çıxılır. Bu halda həmin sifarişçilərə yeni texniki şərtlər verilir.

1.24. Sifarişçi ona verilmiş texniki şərtləri və enerji təchizatı layihəsini itirdikdə o, həmin sənədlərin dublikatının alınması üçün xidmət nöqtələrinə müraciət edir və ya elektron qaydada həmin sənədləri Sistemdən əldə edir. Həmin sənədlərin dublikatı müraciət edildiyi gün xidmət nöqtələri vasitəsilə sifarişçiyə ödənişsiz verilir.

1.25. Tikintiyə icazə icraatı çərçivəsində tikinti obyektinin elektrik şəbəkəsinə qoşulması məqsədilə texniki şərtlərin və enerji təchizatı layihəsinin verilməsi Azərbaycan Respublikası Şəhərsalma və Tikinti Məcəlləsinin tələbləri nəzərə alınmaqla bu Qaydaya uyğun olaraq təmin edilir. Bu halda texniki şərtlər həmin Məcəllənin 77-ci maddəsində nəzərdə tutulmuş tikintiyə icazənin qüvvədə olduğu və ya qüvvədəolma müddətinin uzadıldığı müddətə verilir.

1.26. Sifarişçinin barəsində tikintiyə icazə icraatı tətbiq edilən inşa ediləcək tikinti obyektinin elektrik şəbəkəsinə qoşulması sifarişçi tərəfindən həmin tikinti obyektinin tikintisinə Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinə uyğun olaraq icazə alındıqdan sonra onun bu Qaydanın 2.1-ci və ya 3.1-ci bəndlərində nəzərdə tutulmuş qaydada müraciətinə əsasən bu Qaydaya müvafiq olaraq həyata keçirilir.

1.27. Bərpa olunan enerji mənbələrinin ərazisində elektrik enerjisi istehsalçısının seçilməsi qaydası, habelə bərpa olunan enerji mənbələrinin ərazisində hərrac və ya birbaşa cəlbetmə yolu ilə seçilmiş elektrik enerjisi istehsalçısı ilə bağlanılan müqavilələrin xüsusiyyətləri və şərtləri Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyənləşdirilir.

## 2. Məişət abonentlərinin və tələb olunan gücü *200* kVt-a qədər (*200* kVt da daxil olmaqla mövcud 0,4 kV-luq şəbəkədən) olan mövcud və ya inşa ediləcək tikinti obyektlərinin ETŞ-yə qoşulması və ya əlavə enerji (güc) alması

2.1. Məişət abonentlərinin və tələb olunan gücü *200* kVt-a qədər (*200* kVt da daxil olmaqla mövcud 0,4 kV-luq şəbəkədən) olan mövcud və ya inşa ediləcək tikinti obyektinin ETŞ-yə qoşulması və ya əlavə enerji (güc) alması məqsədilə texniki şərtlərin və enerji

təchizatı layihəsinin hazırlanması üçün sifarişçi "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 29-cu və 30-cu maddələrinə uyğun olaraq, bu Qaydanın 2.2-ci bəndində qeyd olunan məlumatları Sistemə daxil edir və ya həmin məlumatların Sistemə daxil edilməsi məqsədilə tikinti obyektinin yerləşdiyi (yerləşəcəyi) ərazi üzrə xidmət nöqtələrində ETM-in nümayəndəsinə ərizə ilə (elektron və ya yazılı formada) müraciət edir.

2.2. Sistemə aşağıdakı məlumatlar daxil edilir:

2.2.1. sifarişçinin (məişət abonenti istisna olmaqla) VÖEN-i;

2.2.2. sifarişçinin şəxsiyyətini təsdiq edən sənədin FİN nömrəsi (VÖEN olmadıqda);

2.2.3. sifarişçinin ETŞ-yə qoşulması nəzərdə tutulan tikinti obyektinin və ya tikinti obyektinin yerləşdiyi (yerləşəcəyi) torpaq sahəsinin ünvanı (olduğu yer) və həmin tikinti obyekti və ya tikinti obyektinin yerləşdiyi (yerləşəcəyi) torpaq sahəsi üzərində sifarişçinin mülkiyyət və digər əşya hüququnu təsdiq edən sənəd barədə məlumatlar (daşınmaz əmlakın dövlət reyestr nömrəsi və daşınmaz əmlakın qeydiyyat nömrəsi) və ya həmin sənədin skan olunmuş surəti (həmin məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda);

2.2.4. tələb olunan elektrik enerjisinin gücü, qoşulma gərginliyi, etibarlılıq üzrə kateqoriyası;

2.2.5. sifarişçinin mobil telefon nömrəsi, poçt və elektron poçt ünvanı (elektron poçt ünvanı olduqda).

2.3. Tikinti obyektinin ETŞ-yə qoşulması sifarişçinin müraciət etdiyi tarixdən etibarən 20 (iyirmi) gündən gec olmayaraq təmin edilir.

2.4. "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 31-ci maddəsinə uyğun olaraq, ETM-in nümayəndəsi sifarişçinin xidmət nöqtələri vasitəsilə təqdim etdiyi və ya elektron formada göndərdiyi ərizəsini və ona əlavə olunmuş sənədləri qəbul edir, həmin gün qeydiyyata alır və Sistemə daxil edir. Sistemə daxil edilən məlumatlar avtomatik qaydada həmin gün qeydiyyata alınır.

2.5. Sistemə daxil edilmiş məlumatların bu Qaydanın 2.2-ci bəndinin tələblərinə uyğunluğu sifarişçinin müraciət etdiyi gün yoxlanır. Sənədlərdə aradan qaldırılması mümkün olan çatışmazlıqlar aşkar edildikdə, həmin çatışmazlıqların aradan qaldırılmasının zəruriliyi barədə məlumat həmin gün ETM-in nümayəndəsi tərəfindən xidmət nöqtələri vasitəsilə sifarişçiyə təqdim edilir, yaxud poçt göndərişi vasitəsilə sifarişçiyə göndərilməsi təmin edilir, eyni zamanda ərizəsində qeyd olunduğu hallarda elektron poçt ünvanına göndərilir və ya Sistemə yüklənir və formal tələblərə əməl olunmamasının hüquqi nəticələri ona izah edilir. Bu halda sifarişçi bu Qaydanın 2.8-ci bəndində nəzərdə tutulmuş qoşulma xidmətinə görə ödənişi sənədlərdəki çatışmazlıqlar aradan qaldırıldıqdan sonra ödəyir.

2.6. Sifarişçi həmin çatışmazlıqları məlumatı aldığı tarixdən ən geci 10 (on) gün müddətində aradan qaldırır. Bu zaman bu Qaydanın 2.3-cü bəndində nəzərdə tutulmuş müddətin axımı dayandırılır. Çatışmazlıqların aradan qaldırıldığı barədə sifarişçinin müraciətindən sonra müddətin axımı bərpa olunur.

2.7. Sifarişçi sənədlərdə aşkar olunmuş çatışmazlıqları bu Qaydanın 2.6-cı bəndində qeyd olunan müddətdə aradan qaldırmadıqda, müraciətin baxılmamış saxlanılması

haqqında ETM tərəfindən qərar qəbul edilir və bu barədə məlumat 2 (iki) gün müddətində xidmət nöqtələri vasitəsilə sifarişçiyə təqdim edilir, yaxud poçt göndərişi vasitəsilə sifarişçiyə göndərilməsi təmin edilir, eyni zamanda ərizəsində qeyd olunduğu hallarda elektron poçt ünvanına göndərilir və ya Sistemə yüklənir.

2.8. Sistemə daxil edilmiş məlumatların bu Qaydanın 2.2-ci bəndinin tələblərinə uyğunluğu təsdiqləndikdən sonra 1 (bir) gün ərzində sifarişçi ödəniləcək məbləğ barədə ETM-in nümayəndəsi tərəfindən Sistemə daxil edilmiş və ya mobil telefon nömrəsinə SMS-lə göndərilmiş bildirişə əsasən, qoşulma xidmətinə görə ödənişi Sistem vasitəsilə ETM-in bank hesabına köçürür və ya vəsaitin köçürülməsini təsdiq edən sənədi Sistemə yükləyir və ya Sistemə daxil edilməsi məqsədilə kağız daşıyıcıda ETM-in nümayəndəsinə təqdim edir. Sifarişçi bu bəndin tələblərinə uyğun olaraq qoşulma xidmətinə görə ödənişi ödəmədikdə bu Qaydanın 2.3-cü bəndində nəzərdə tutulmuş müddətin axımı dayandırılır. Sifarişçi bu bəndin tələblərini yerinə yetirdikdən sonra müddətin axımı bərpa olunur.

2.9. Sistem bu Qaydanın 2.8-ci bəndində nəzərdə tutulmuş qoşulma xidmətinə görə ödənişin ödənildiyi gün daxil edilmiş məlumatlar əsasında tələb olunan elektrik enerjisinin (gücünün) verilməsi üçün elektron xəritə üzərindən tikinti obyektinin yerləşdiyi (yerləşəcəyi) torpaq sahəsinin sərhədindən (girişindən) mövcud ETŞ-yə qoşulma nöqtəsini və həmin nöqtəyədək düz xətt üzrə məsafəni müəyyənləşdirir.

2.10. Bu Qaydanın 2.9-cu bəndinə uyğun olaraq seçilmiş ETŞ-yə qoşulma nöqtəsindən tikinti obyektinə elektrik xətlərinin çəkilməsi ilə əlaqədar optimal trassanın (yolun) layihəsi ETM-in Sistem vasitəsilə müraciəti əsasında müvafiq yerli icra hakimiyyəti orqanı, Bakı şəhərinin və "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 7 iyul tarixli 1386 nömrəli Fərmanının 1.6-cı və 1.13-cü bəndləri ilə müəyyən edilmiş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının əhatə etdiyi şəhər və rayonların inzibati ərazisində isə Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi tərəfindən 1 (bir) gün müddətində hazırlanır və trassanın (yolun) razılaşdırılması ilə bağlı rəyinin alınması tələb olunan orqanların (qurumların) siyahısı bu Qaydanın 7 nömrəli əlavəsində nəzərdə tutulan siyahı əsasında müəyyənlədirilərək trassanın (yolun) layihəsi ilə birlikdə Sistemə yerləşdirilir. ETM-in nümayəndəsi həmin gün Sistem vasitəsilə həmin orqanlara (qurumlara) müraciət edir.

2.11. Tikinti obyektinə elektrik enerjisi (gücü) verilməsi üçün seçilən trassaya (yola) rəyi tələb olunan orqanlar (qurumlar) 3 (üç) gündən gec olmayaraq Sistemdə münasibət bildirirlər. Həmin orqanlar (qurumlar) tərəfindən münasibət bildirilərkən, enerji təchizatı layihəsində nəzərə alınması üçün trassanın (yolun) razılaşdırılmasına aid texniki tələblər ayrıca göstərilir. Rəyi tələb olunan orqanlar (qurumlar) tərəfindən bu bəndin birinci cümləsində göstərilən müddət ərzində münasibət bildirilmədikdə məsələ razılaşdırılmış hesab edilir.

2.12. Tikinti obyektinə elektrik enerjisi (gücü) verilməsi üçün seçilən trassanın (yolun) rəyi tələb olunan bütün orqanlarla (qurumlarla) razılaşdırıldığı gün Sistem tərəfindən texniki şərt hazırlanır və həmin gün ETM tərəfindən enerji təchizatı layihəsinin hazırlanmasına başlanılır.

2.13. ETM 4 (dörd) gün müddətində tikinti obyektinə baxış keçirmədən enerji təchizatı layihəsini hazırlayır.

2.14. Sifarişçi texniki şərtlərdə qeyd olunan qoşulmaya dair tələblərin yerinə yetirilməsinə görə cavabdeh deyildir.

2.15. Tikinti obyektindən və ya tikinti obyektinin yerləşdiyi (yerləşəcəyi) torpaq sahəsindən ETŞ-yə qoşulma nöqtəsinədək elektrik xətlərinin çəkilməsini və tikinti-quraşdırma işlərini ETM həyata keçirir. Bu zaman sifarişçi qoşulma xidmətinə görə ödənişdən əlavə heç bir ödəniş etmir.

2.16. Tikinti obyektindən və ya tikinti obyektinin yerləşdiyi (yerləşəcəyi) torpaq sahəsindən ETŞ-yə qoşulma ilə əlaqədar elektrik xətlərinin çəkilməsi və tikinti-quraşdırma işləri texniki şərtlərə və enerji təchizatı layihəsinə əsasən ən geci 10 (on) gün müddətində yerinə yetirilir.

2.17. Bu Qaydanın 2.16-cı bəndində nəzərdə tutulmuş işlərin yerinə yetirilməsinin başa çatdırıldığı gün sifarişçinin və ETM-in nümayəndələrinin iştirakı ilə görülən işlərə baxış keçirilir və texniki şərtlərin, enerji təchizatı layihəsinin və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 11 fevral tarixli 40 nömrəli Qərarı ilə təsdiq edilmiş "Elektrik qurğularının quraşdırılması Qaydası"nın (bundan sonra - **"Elektrik qurğularının quraşdırılması Qaydası"**) tələblərinin tam yerinə yetirilməsi müəyyən edildiyi halda, ETM ilə sifarişçi arasında 2 (iki) nüsxədə qoşulma müqaviləsi, qoşulma aktı, "Elektrik enerjisindən istifadə Qaydaları"na uyğun olaraq elektrik enerjisinin alqı-satqı müqaviləsi bağlanılır, həmin sənədlər kağız daşıyıcıda sifarişçiyə təqdim edilir və ETM tərəfindən həmin gün Sistemə yerləşdirilir. Görülmüş işlərin nəticəsi barədə məlumatlar, o cümlədən texniki şərtlər və enerji təchizatı layihəsi ETM tərəfindən həmin gün Sistemə yerləşdirilir və ya kağız daşıyıcıda sifarişçiyə təqdim edilir və ETM elektrik enerjisinin verilməsini təmin edir.

2.18. Qoşulma aktı imzalandığı halda ETM elektrik enerjisinin alqı-satqı müqaviləsini bağlamaqdan imtina edə bilməz.

2.19. Qoşulma müqaviləsi və onun tərkib hissəsi olan texniki şərtlər bu Qaydanın 1 nömrəli əlavəsi, qoşulma aktı isə bu Qaydanın 2 nömrəli əlavəsi ilə müəyyən olunan formada tərtib edilir.

2.20. Yaşayış binalarının ETŞ-yə qoşulması üçün bu Qaydanın tələblərinə uyğun olaraq ETM tərəfindən ümumi texniki şərtlərin verildiyi və həmin texniki şərtlərin tələblərinin icra olunduğu nəzərə alınaraq, həmin binalarda yerləşən mənzillərin, həmçinin yaşayış binası üçün verilmiş texniki şərtdə qeyd olunan güc hesabatında nəzərdə tutulan, həmin yaşayış binasının 0,4 kV-luq paylayıcı lövhəsinə qoşulan qeyri-yaşayış sahələrinin ETŞ-yə qoşulması üçün ayrıca texniki şərtlərin və enerji təchizatı layihəsinin alınması, həmçinin qoşulma xidmətinə görə ödəniş tələb olunmur.

2.21. Məişət abonentlərinin və tələb olunan gücü *200* kVt-a qədər (*200* kVt da daxil olmaqla mövcud 0,4 kV-luq şəbəkədən) olan mövcud və ya inşa ediləcək tikinti obyektlərinin yerləşdiyi ərazidə 0,4 kV-luq şəbəkə olmadıqda həmin tikinti obyektlərinin enerji təchizatı şəbəkəsinə qoşulması və ya əlavə enerji (güc) alması bu Qaydanın 3-cü hissəsində nəzərdə tutulmuş qaydada həyata keçirilir.

**3. Tələb olunan gücü *200* kVt-a qədər (orta və yüksəkgərginlikli şəbəkədən) və *200* kVt-dan yuxarı olan mövcud və ya inşa ediləcək tikinti obyektlərinin elektrik şəbəkəsinə qoşulması və ya əlavə enerji (güc) alması**

3.1. Tələb olunan gücü *200* kVt-a qədər (orta və yüksəkgərginlikli şəbəkədən) və *200* kVt-dan yuxarı olan mövcud və ya inşa ediləcək tikinti obyektlərinin elektrik şəbəkəsinə qoşulması və ya əlavə enerji (güc) alması məqsədilə texniki şərtlərin alınması üçün sifarişçi "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 29-cu və 30-cu maddələrində nəzərdə tutulmuş qaydada bu Qaydanın 2.2-ci bəndində qeyd olunan məlumatları Sistemə daxil edir və ya həmin məlumatların Sistemə daxil edilməsi üçün tikinti obyektinin yerləşdiyi (yerləşəcəyi) ərazi üzrə xidmət nöqtələrində DEM-in (tikinti obyekti ötürücü şəbəkəyə qoşulduqda) və ya ETM-in (tikinti obyekti ETŞ-yə qoşulduqda) nümayəndəsinə ərizə ilə (elektron və ya yazılı formada) müraciət edir.

3.2. Sifarişçinin seçiminə uyğun olaraq enerji təchizatı layihəsinin hazırlanmasının sifarişçinin hesabına ETM və ya DEM tərəfindən həyata keçiriləcəyi hallarda sifarişçi texniki şərtlərin və enerji təchizatı layihəsinin alınması üçün bu Qaydanın 3.1-ci bəndində nəzərdə tutulmuş qaydada ETM-ə və ya DEM-ə müraciət edir.

3.3. Texniki şərtlər sifarişçinin müraciət etdiyi tarixdən etibarən 7 (yeddi) gündən gec olmayaraq, bu Qaydanın 3.2-ci bəndində nəzərdə tutulmuş hallarda isə həmçinin enerji təchizatı layihəsi ilə birlikdə 30 (otuz) gündən gec olmayaraq verilir.

3.4. Sistemə bu Qaydanın 2.4–2.7-ci bəndlərinin tələblərinə riayət edilməklə bu Qaydanın 2.2-ci bəndində göstərilən məlumatlar daxil edilir. Sistemə daxil edilmiş məlumatların bu Qaydanın 2.2-ci bəndinin tələblərinə uyğunluğu təsdiqləndikdən sonra 1 (bir) gün ərzində sifarişçi ödəniləcək məbləğ barədə ETM-in və ya DEM-in nümayəndəsi tərəfindən Sistemə daxil edilmiş və ya mobil telefon nömrəsinə SMS-lə göndərilmiş bildirişə əsasən, qoşulma xidmətinə görə ödənişi ETM-in və ya DEM-in bank hesabına köçürür, vəsaitin köçürülməsini təsdiq edən sənədi Sistemə yükləyir və ya Sistemə daxil edilməsi məqsədilə kağız daşıyıcıda ETM-in və ya DEM-in nümayəndəsinə təqdim edir. Sifarişçi bu bəndin tələblərinə uyğun olaraq qoşulma xidmətinə görə ödənişi ödəmədikdə bu Qaydanın 3.3-cü bəndində nəzərdə tutulmuş müddətin axımı dayandırılır. Sifarişçi bu bəndin tələblərini yerinə yetirdikdən sonra müddətin axımı bərpa olunur. Enerji təchizatı layihəsinin podratçı tərəfindən hazırlanacağı hallarda ETM və ya DEM 7 (yeddi) gün müddətində texniki şərtləri hazırlayaraq xidmət nöqtələri vasitəsilə kağız daşıyıcıda sifarişçiyə təqdim edir və ya Sistemə yükləyir və sifarişçi ilə 2 (iki) nüsxədə qoşulma müqaviləsi bağlanılır. Qoşulma müqaviləsi kağız daşıyıcıda sifarişçiyə təqdim edilir və ETM və ya DEM tərəfindən həmin gün Sistemə yerləşdirilir.

3.5. Enerji təchizatı layihəsinin hazırlanmasının ETM və ya DEM tərəfindən həyata keçiriləcəyi hallarda ETM-in və ya DEM-in nümayəndəsi bu Qaydanın 3.4-cü bəndində nəzərdə tutulan qoşulma xidmətinə görə ödənişin ödənildiyi gündən etibarən 1 (bir) gün müddətində tələb olunan elektrik enerjisinin (gücünün) verilməsi üçün tikinti obyektinin yerləşdiyi (yerləşəcəyi) torpaq sahəsinin sərhədindən (girişindən) mövcud elektrik şəbəkəsinə qoşulma nöqtəsini müəyyən edir. Həmin nöqtədən tikinti obyektinə elektrik xətlərinin çəkilməsi üçün optimal trassanın (yolun) layihəsinin və həmin trassa (yol) üzrə

rəyi tələb olunan orqanların (qurumların) siyahısının bu Qaydanın 7 nömrəli əlavəsində nəzərdə tutulan siyahı əsasında müəyyənləşdirilərək 3 (üç) gün müddətində hazırlanması üçün ETM-in və ya DEM-in nümayəndəsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin razılığı ilə tikinti obyektlərinə münasibətdə və Bakı şəhərinin və "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 7 iyul tarixli 1386 nömrəli Fərmanının 1.6-cı və 1.13-cü bəndləri ilə müəyyən edilmiş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının əhatə etdiyi şəhər və rayonların inzibati ərazisi üzrə Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə, sərəncamına verilmiş torpaq sahəsində sərəncamında olduğu müddətdə həyata keçirilən şəhərsalma fəaliyyətinə münasibətdə Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinə, digər hallarda müvafiq yerli icra hakimiyyəti orqanına Sistem vasitəsilə sorğu göndərir.

3.6. Bu Qaydanın 3.5-ci bəndinə əsasən, ETM-in və ya DEM-in nümayəndəsi tikinti obyektinə elektrik enerjisi (gücü) verilməsi üçün seçilən trassa (yol) üzrə rəyi tələb olunan orqanların (qurumların) siyahısının Sistemə yerləşdirildiyi gün Sistem vasitəsilə həmin orqanlara (qurumlara) müraciət edir. ETM-in və ya DEM-in nümayəndəsi tərəfindən edilmiş müraciətə və təqdim olunmuş sənədlərə həmin orqanlar (qurumlar) 3 (üç) gündən gec olmayaraq Sistemdə münasibət bildirirlər. Həmin orqanlar (qurumlar) tərəfindən münasibət bildirilərkən, enerji təchizatı layihəsində nəzərə alınması üçün trassanın (yolun) razılaşdırılmasına aid texniki tələblər ayrıca qeyd olunur. Rəyi tələb olunan orqanlar (qurumlar) tərəfindən bu bəndin ikinci cümləsində göstərilən müddət ərzində münasibət bildirilmədikdə məsələ razılaşdırılmış hesab edilir.

3.7. ETM-in və ya DEM-in nümayəndəsi orqanların (qurumların) razılığını aldığı gün enerji təchizatı layihəsinin hazırlanması üçün ETM və ya DEM tərəfindən müəyyən olunan məbləğ barədə bildirişi Sistemə daxil edir və SMS-lə sifarişçinin mobil telefon nömrəsinə göndərir. Sifarişçi bildirişi aldıqdan sonra 1 (bir) gün ərzində, enerji təchizatı layihəsinin hazırlanması üçün tələb olunan vəsaiti Sistem vasitəsilə ETM-in və ya DEM-in bank hesabına köçürür, vəsaitin köçürülməsini təsdiq edən sənəd barədə məlumatı Sistemə daxil edir və ya Sistemə daxil edilməsi məqsədilə ETM-in və ya DEM-in nümayəndəsinə təqdim edir. Sifarişçi bu bəndin tələblərinə uyğun olaraq bildirişdə əks olunan vəsaiti ETM-in və ya DEM-in bank hesabına köçürmədikdə bu Qaydanın 3.4-cü bəndinin üçüncü və dördüncü cümlələri tətbiq olunur. Həmin vəsait köçürüldüyü halda sifarişçi ilə 2 (iki) nüsxədə qoşulma müqaviləsi bağlanılır, qoşulma müqaviləsi kağız daşıyıcıda sifarişçiyə təqdim edilir və ETM və ya DEM tərəfindən həmin gün Sistemə yerləşdirilir. ETM-in və ya DEM-in nümayəndəsi texniki şərtlər və enerji təchizatı layihəsinin hazırlanması üçün ETM-ə və ya DEM-ə müraciət edir. ETM və ya DEM 20 (iyirmi) gün müddətində texniki şərtləri və enerji təchizatı layihəsini hazırlayır. Sənədlərin hazırlanması prosesi çərçivəsində tikinti obyektinə yerində baxış zamanı sifarişçinin cəlb edilməsi nəzərdə tutulmur.

3.8. Bu Qaydanın 3.2-ci bəndində nəzərdə tutulmuş hallarda ETM və ya DEM tərəfindən texniki şərtlər və enerji təchizatı layihəsi hazır olduğu gün ETM-in və ya DEM-in nümayəndəsi tərəfindən sifarişçiyə məlumat verilir. Texniki şərtlər və bu Qaydanın 3.2-

ci bəndində nəzərdə tutulmuş hallarda enerji təchizatı layihəsi xidmət nöqtələri vasitəsilə kağız daşıyıcıda sifarişçiyə təqdim edilir.

3.9. Qoşulma müqaviləsi və onun tərkib hissəsi olan texniki şərtlər bu Qaydanın 3 nömrəli əlavəsi, qoşulma aktı isə bu Qaydanın 4 nömrəli əlavəsi ilə müəyyən olunan formada tərtib edilir.

3.10. Enerji təchizatı layihəsinin hazırlanmasının podratçı tərəfindən həyata keçiriləcəyi hallarda sifarişçi bu Qaydanın 3.4-cü bəndinə uyğun olaraq, texniki şərtləri əldə etdikdən sonra tikinti obyektinə elektrik enerjisi (gücü) verilməsi üçün optimal trassanın (yolun) layihəsinin və həmin trassa (yol) üzrə rəyi tələb olunan orqanların (qurumların) siyahısının bu Qaydanın 7 nömrəli əlavəsində nəzərdə tutulan siyahı əsasında müəyyənləşdirərək 3 (üç) gün müddətində hazırlanması üçün Azərbaycan Respublikası Nazirlər Kabinetinin razılığı ilə tikinti obyektlərinə münasibətdə və Bakı şəhərinin və "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 7 iyul tarixli 1386 nömrəli Fərmanının 1.6-cı və 1.13-cü bəndləri ilə müəyyən edilmiş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının əhatə etdiyi şəhər və rayonların inzibati ərazisi üzrə Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə, sərəncamına verilmiş torpaq sahəsində sərəncamında olduğu müddətdə həyata keçirilən şəhərsalma fəaliyyətinə münasibətdə Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinə, digər hallarda müvafiq yerli icra hakimiyyəti orqanına sorğu göndərir. Sifarişçi tikinti obyektinə elektrik enerjisi (gücü) verilməsi üçün optimal trassanın (yolun) layihəsi və seçilən trassa (yol) üzrə rəyi tələb olunan orqanların (qurumların) dairəsi müəyyən edildiyi gün həmin orqanlara (qurumlara) müraciət edir və bu halda rəyi tələb olunan orqanlar (qurumlar) tərəfindən bu Qaydanın 3.6-cı bəndində qeyd edilən tələblərə riayət olunur.

3.11. Enerji təchizatı layihəsi sifarişçinin seçdiyi podratçı tərəfindən hazırlandıqda layihə razılaşdırılması üçün sifarişçi tərəfindən ETM-ə və ya DEM-ə təqdim edilir. ETM və ya DEM tərəfindən 3 (üç) gün müddətində münasibət bildirilmədikdə enerji təchizatı layihəsi razılaşdırılmış hesab edilir. ETM-in və ya DEM-in rəyləri əsasında sifarişçi tərəfindən enerji təchizatı layihəsində 3 (üç) gün müddətində müvafiq dəyişikliklər edildikdən sonra bu bəndin tələblərinə uyğun olaraq enerji təchizatı layihəsi yenidən razılaşdırılır. Layihəyə dair bütün iradlar ilkin rəydə bildirilməlidir. Sifarişçi tərəfindən həmin qurumların ilkin rəyləri tam nəzərə alındığı halda yeni rəy bildirilə bilməz.

3.12. Tikinti obyektindən və ya tikinti obyektinin yerləşdiyi (yerləşəcəyi) torpaq sahəsindən elektrik şəbəkəsinə qoşulma nöqtəsinədək elektrik xətlərinin çəkilməsi və tikinti-quraşdırma işləri ETM və ya DEM tərəfindən həyata keçirildikdə, ETM-in və ya DEM-in nümayəndəsi tərəfindən ETM-in və ya DEM-in hazırladığı smeta sənədlərinə əsasən tikinti-quraşdırma işləri üçün tələb olunan məbləğ barədə bildiriş Sistemə daxil edilir və SMS-lə sifarişçinin mobil telefon nömrəsinə göndərilir. Həmin işlər texniki şərtlərə və enerji təchizatı layihəsinə əsasən, qoşulma müqaviləsində qeyd olunan müddətdə və bildirişdə əks olunan vəsait sifarişçi tərəfindən ETM-in və ya DEM-in bank hesabına köçürüldükdən sonra yerinə yetirilir. Sifarişçi bildirişə əsasən tikinti-quraşdırma işləri üçün tələb olunan məbləği Sistem vasitəsilə ETM-in və ya DEM-in bank hesabına köçürür və ya vəsaitin köçürülməsini təsdiq edən sənəd barədə məlumatları Sistemə daxil

edir və ya Sistemə daxil edilməsi məqsədilə ETM-in və ya DEM-in nümayəndəsinə təqdim edir.

3.13. Enerji təchizatı layihəsinin hazırlanması, həmçinin elektrik xətlərinin çəkilməsi və tikinti-quraşdırma işləri podratçı tərəfindən həyata keçirildikdə, işlər yerinə yetirildikdən sonra sifarişçi ETM-ə və ya DEM-ə bu barədə kağız daşıyıcıda məlumat verir və ya həmin məlumatı Sistemə yerləşdirir.

3.14. Bu Qaydanın 3.12-ci və 3.13-cü bəndlərində nəzərdə tutulmuş işlər yerinə yetirildikdən sonra 2 (iki) gün müddətində ETM-in və ya DEM-in nümayəndələrinin, sifarişçinin, bu işlər podratçı tərəfindən yerinə yetirildiyi halda isə həmçinin həmin podratçının iştirakı ilə görülən işlərə baxış keçirilir və texniki şərtlərin, enerji təchizatı layihəsinin və "Elektrik qurğularının quraşdırılması Qaydası"nın tələblərinin tam yerinə yetirilməsi müəyyən edildiyi halda, təhvil-təslim aktı imzalanır və kontur torpaqlama müqavimətinin ölçülməsi protokolu, transformatorun və avadanlıqların sınaq-sazlama protokolu və elektrik veriliş xəttinin sınaq protokolu və qapalı işlər aktı tikinti-quraşdırma işlərini həyata keçirən ETM, DEM və ya podratçı tərəfindən, elektrik sayğacının quraşdırılması aktı isə ETM tərəfindən sifarişçiyə təqdim edilir. Bu Qaydanın 3.15-ci bəndində nəzərdə tutulan hallar istisna olmaqla digər tikinti obyektləri üçün həmin gün ETM və ya DEM ilə sifarişçi arasında 2 (iki) nüsxədə qoşulma aktı və ETM-lə "Elektrik enerjisindən istifadə Qaydaları"na uyğun olaraq elektrik enerjisinin alqı-satqı müqaviləsi imzalanır, həmin sənədlər Sistemə yerləşdirilir və kağız daşıyıcıda sifarişçiyə təqdim edilir, elektrik enerjisinin verilməsi təmin edilir.

3.15. Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi güc həddindən yuxarı elektrik qurğularının istismarına buraxılış aktı tələb edildiyi hallarda bu Qaydanın 3.14-cü bəndində qeyd edilən təhvil-təslim aktı alındıqdan sonra 3 (üç) gün müddətində Agentlik tərəfindən sifarişçinin, bu işlər podratçı tərəfindən yerinə yetirildiyi halda isə həmçinin, həmin podratçının və ETM-in və ya DEM-in nümayəndələrinin iştirakı ilə "Elektrik enerjisindən istifadə Qaydaları"nın və Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 16 iyul tarixli 204 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahəsində nəzarətin həyata keçirilməsi Qaydası"nın tələblərinə uyğun olaraq görülən işlərə baxış keçirilir və texniki şərtlərin, enerji təchizatı layihəsinin və "Elektrik qurğularının quraşdırılması Qaydası"nın tələblərinin tam yerinə yetirilməsi müəyyən edildiyi halda, istismara buraxılış aktı verilir, sifarişçi ilə ETM və ya DEM arasında iki nüsxədə qoşulma aktı, ETM-lə "Elektrik enerjisindən istifadə Qaydaları"na uyğun olaraq elektrik enerjisinin alqı-satqı müqaviləsi imzalanır, həmin sənədlər Sistemə yerləşdirilir və kağız daşıyıcıda sifarişçiyə təqdim edilir və elektrik enerjisinin verilməsi təmin edilir.

3.16. Bu Qaydanın 3.14-cü bəndində nəzərdə tutulmuş hallarda qoşulma aktının imzalandığı, bu Qaydanın 3.15-ci bəndində nəzərdə tutulmuş hallarda isə istismara buraxılış aktının verildiyi halda ETM tərəfindən elektrik enerjisinin alqı-satqı müqaviləsinin bağlanılmasından imtina edilə bilməz.

3.17. Bu Qaydanın 3.14-cü və 3.15-ci bəndlərində nəzərdə tutulmuş hallarda texniki baxış keçirilərkən elektrik xətlərinin çəkilməsi və tikinti-quraşdırma işlərinin texniki şərtlərə, enerji təchizatı layihəsinə və "Elektrik qurğularının quraşdırılması Qaydası"nın

tələblərinə uyğun aparılmadığı müəyyən olunduqda, bu Qaydanın 3.14-cü bəndində nəzərdə tutulmuş hallarda ETM və ya DEM tərəfindən sifarişçiyə və podratçıya, bu Qaydanın 3.15-ci bəndində nəzərdə tutulmuş hallarda isə Agentlik tərəfindən bu barədə sifarişçiyə və podratçıya, bu işlər ETM və ya DEM tərəfindən həyata keçirildikdə isə ETM-ə və ya DEM-ə 2 (iki) gün müddətində aradan qaldırılmalı çatışmazlıqlar göstərilməklə əsaslandırılmış cavab verilir.

3.18. Elektrik xətlərini çəkən və tikinti-quraşdırma işlərini yerinə yetirən podratçı, yaxud ETM və ya DEM 2 (iki) gün müddətində bu Qaydanın 3.17-ci bəndinə uyğun olaraq verilən cavabda qeyd olunan çatışmazlıqları aradan qaldırır və görülən işlərə bu Qaydanın 3.14-cü və ya 3.15-ci bəndinə uyğun olaraq yenidən baxış keçirilir.

3.19. Elektrik xətlərini çəkən və tikinti-quraşdırma işlərini yerinə yetirən podratçı, yaxud ETM və ya DEM qeyd olunan çatışmazlıqlarla razılaşmadıqda, inzibati və məhkəmə qaydasında şikayət edə bilər.

3.20. Elektrik təchizatı sisteminin layihələndirilməsi zamanı texniki şərtlərin tələblərindən kənara çıxma zərurəti yaranarsa, bu kənara çıxmaların razılaşdırılması üçün sifarişçi kənara çıxma zərurəti yaradan səbəblərə dair əsaslandırılmış məlumatlar qeyd edilmiş ərizə ilə texniki şərtləri vermiş müəssisəyə və ya xidmət nöqtələrinə müraciət edir. Texniki şərtləri vermiş müəssisə 2 (iki) gün müddətində sifarişçi tərəfindən təqdim edilmiş kənara çıxma zərurətinə dair məlumatlar əsaslı hesab edildikdə texniki şərtlərdə müvafiq dəyişikliklərin edilməsi barədə, əks halda texniki şərtlərin qüvvədə saxlanılması barədə qərar qəbul edir.

3.21. Elektrik enerjisi paylayıcısının tikinti obyektinin ötürücü şəbəkəyə qoşulması bu Qaydanın 3-cü hissəsində nəzərdə tutulmuş qaydada həyata keçirilir.

## 4. Enerji istehsalçılarının elektrik enerjisi istehsal edən tikinti obyektlərinin elektrik şəbəkəsinə qoşulması və ya əlavə enerji (güc) alması

4.1. Enerji istehsalçılarının elektrik enerjisi istehsal edən tikinti obyektlərinin elektrik şəbəkəsinə qoşulması və ya əvvəllər elektrik şəbəkəsinə qoşulmuş enerji istehsalçılarının elektrik enerjisi istehsal edən tikinti obyektlərinin istehsal gücünün artması, həmçinin qoşulma nöqtəsinin dəyişməsi ilə əlaqədar texniki şərtlərin alınması məqsədilə sifarişçi istehsal etdiyi gücdən və qoşulma nöqtəsindən asılı olaraq, "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 29-cu və 30-cu maddələrində nəzərdə tutulmuş qaydada bu Qaydanın 4.2-ci bəndində qeyd olunan məlumatları Sistemə daxil edir və ya həmin məlumatların Sistemə daxil edilməsi məqsədilə tikinti obyektinin yerləşdiyi (yerləşəcəyi) ərazi üzrə xidmət nöqtələrində ETM-in və ya DEM-in nümayəndəsinə yazılı və ya elektron formada ərizə ilə müraciət edir.

4.2. Sistemə aşağıdakı məlumatlar daxil edilir:

4.2.1. sifarişçinin VÖEN-i;

4.2.2. bu Qaydanın 2.2.2-ci, 2.2.3-cü və 2.2.5-ci yarımbəndlərində göstərilən məlumatlar;

4.2.3. sifarişçinin elektrik şəbəkəsinə qoşulması nəzərdə tutulan tikinti obyektinin və ya tikinti obyektinin yerləşdiyi (yerləşəcəyi) torpaq sahəsinin ünvanı (olduğu yer) və

həmin tikinti obyekti və ya tikinti obyektinin yerləşdiyi (yerləşəcəyi) torpaq sahəsi üzərində sifarişçinin mülkiyyət və digər əşya hüququnu istifadə hüququnu təsdiq edən sənəd barədə məlumatlar (daşınmaz əmlakın dövlət reyestr nömrəsi və daşınmaz əmlakın qeydiyyat nömrəsi) və ya həmin sənədin skan olunmuş surəti;

4.2.4. istehsal olunan elektrik enerjisinin gücü, keyfiyyət göstəriciləri, habelə elektrik qurğularının aktiv və reaktiv gücü, sutkalıq yük qrafiki;

4.2.5. elektrik enerjisinin istehsalına icazə barədə sənədə dair məlumatlar ("Elektrik enerjisinin istehsalı və elektrik qurğularının istismara buraxılışı üçün güc hədlərinin müəyyən edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 24 noyabr tarixli 482 nömrəli Qərarında nəzərdə tutulmuş elektrik stansiyaları üçün).

4.3. ETM-in və ya DEM-in nümayəndəsi tərəfindən xidmət nöqtələri vasitəsilə təqdim edilən və ya elektron formada göndərilən ərizə və ona əlavə olunan sənədlərlə bağlı bu Qaydanın 2.4-cü bəndində nəzərdə tutulmuş tədbirləri görür. Sistemə daxil edilən məlumatlar avtomatik qaydada həmin gün qeydiyyata alınır.

4.4. Sistemə daxil edilmiş məlumatların bu Qaydanın 4.2-ci bəndinin tələblərinə uyğunluğu sifarişçinin müraciət etdiyi gün yoxlanılır və uyğunluq təsdiqləndiyi halda həmin gün DEM və ya ETM tərəfindən sifarişçiyə bu barədə məlumat Sistem vasitəsilə və ya kağız daşıyıcıda təqdim edilir.

4.5. Sənədlərdə aradan qaldırılması mümkün olan çatışmazlıqlar aşkar edildikdə, həmin çatışmazlıqların aradan qaldırılmasının zəruriliyi barədə məlumat DEM və ya ETM tərəfindən həmin gün xidmət nöqtələri vasitəsilə sifarişçiyə təqdim edilir, yaxud poçt göndərişi vasitəsilə sifarişçiyə göndərilməsi təmin edilir, eyni zamanda ərizəsində qeyd olunduğu hallarda elektron poçt ünvanına göndərilir və ya Sistemə yüklənilir və formal tələblərə əməl olunmamasının hüquqi nəticələri ona izah edilir. Sifarişçi həmin çatışmazlıqları məlumatı aldığı tarixdən ən geci 10 (on) gün müddətində aradan qaldırır.

4.6. Sifarişçi sənədlərdə aşkar olunmuş çatışmazlıqları bu Qaydanın 4.5-ci bəndində qeyd olunan müddətdə aradan qaldırmadıqda, müraciətin baxılmamış saxlanılması haqqında DEM və ya ETM tərəfindən qərar qəbul edilir və bu barədə məlumat 2 (iki) gün müddətində xidmət nöqtələri vasitəsilə sifarişçiyə təqdim edilir, yaxud poçt göndərişi vasitəsilə sifarişçiyə göndərilməsi təmin edilir, eyni zamanda ərizəsində qeyd olunduğu hallarda elektron poçt ünvanına göndərilir və ya Sistemə yüklənilir.

4.7. Bu Qaydanın 4.4-cü bəndində nəzərdə tutulmuş qaydada məlumat aldıqdan sonra sifarişçi özünün seçdiyi bu sahədə ixtisaslaşdırılmış müəssisəyə (podratçı, ETM-ə və ya DEM-ə) qoşulmanın elektrik şəbəkəsinə təsirinin qiymətləndirilməsi (bundan sonra - **qiymətləndirmə**) üçün müraciət edir. Qiymətləndirmə ilə bağlı bütün xərclər sifarişçi tərəfindən ödənilir.

4.8. Qiymətləndirmənin nəticələrində aşağıdakı məlumatlar qeyd olunur:

4.8.1. elektrik şəbəkəsinə qoşulmanın ümumi texniki həlli yollarının təhlili;

4.8.2. elektrik şəbəkəsinə qoşulma nöqtələrində elektrik qurğularının texniki xüsusiyyətləri;

4.8.3. sifarişçinin elektrik qurğularına texniki tələblər və istismar tələbləri;

4.8.4. elektrik şəbəkəsində güc balansının təmin edilməsi və əlavə xidmətlərin göstərilməsi baxımından sifarişçinin elektrik qurğularına olan tələblər;

4.8.5. elektrik şəbəkəsinə qoşulması nəzərdə tutulan elektrik qurğularının elektrik şəbəkəsinə təsirinin qiymətləndirilməsi barədə məlumat.

4.9. Qiymətləndirmə zamanı elektrik şəbəkəsinə qoşulmanı təmin etmək və elektrik şəbəkəsinə qoşulması nəzərdə tutulan enerji istehsalçısının elektrik enerjisi istehsal edən tikinti obyektinin həmin elektrik şəbəkəsinə mənfi təsir göstərmədən istifadə edilməsi üçün hesablamalar (enerji axınları, qısaqapanma cərəyanları, reaktiv gücü idarəetmə, güc keyfiyyəti parametrlərinin müəyyən edilməsi) aparılır.

4.10. Qiymətləndirmənin nəticəsini əldə edən sifarişçi ödəniləcək məbləğ barədə ETM-in və ya DEM-in nümayəndəsi tərəfindən Sistemə daxil edilmiş və ya mobil telefon nömrəsinə SMS-lə göndərilmiş bildirişə əsasən, qoşulma xidmətinə görə ödənişi DEM-in və ya ETM-in bank hesabına köçürür və vəsaitin köçürülməsini təsdiq edən sənədi, həmçinin qiymətləndirmənin nəticələrini Sistemə yükləyir və ya kağız daşıyıcıda DEM-in və ya ETM-in nümayəndəsinə təqdim edir. DEM və ya ETM qoşulma xidmətinə görə ödənişin ödənildiyi tarixdən 10 (on) gün müddətində qiymətləndirmənin nəticəsinə uyğun olaraq texniki şərtləri hazırlayır və kağız daşıyıcıda sifarişçiyə təqdim edir və ya Sistemə yükləyir. Texniki şərtlər sifarişçiyə təqdim edilərkən sifarişçi ilə 2 (iki) nüsxədə qoşulma müqaviləsi bağlanılır, müqavilə kağız daşıyıcıda sifarişçiyə təqdim edilir və həmin gün Sistemə yerləşdirilir.

4.11. Sifarişçi bu Qaydanın 4.10-cu bəndinə uyğun olaraq texniki şərtləri əldə etdikdən sonra optimal trassanın (yolun) layihəsinin və həmin trassa (yol) üzrə rəyi tələb olunan orqanların (qurumların) siyahısının bu Qaydanın 7 nömrəli əlavəsində nəzərdə tutulan siyahısı əsasında müəyyənləşdirilərək 3 (üç) gün müddətində hazırlanması ilə bağlı Azərbaycan Respublikası Nazirlər Kabinetinin razılığı ilə tikinti obyektlərinə münasibətdə və Bakı şəhərinin və "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 7 iyul tarixli 1386 nömrəli Fərmanının 1.6-cı və 1.13-cü bəndləri ilə müəyyən edilmiş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının əhatə etdiyi şəhər və rayonların inzibati ərazisi üzrə Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə, sərəncamına verilmiş torpaq sahəsində sərəncamında olduğu müddətdə həyata keçirilən şəhərsalma fəaliyyətinə münasibətdə Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinə, digər hallarda müvafiq yerli icra hakimiyyəti orqanına sorğu göndərir. Sifarişçi seçilən trassa (yol) üzrə rəyi tələb olunan orqanların (qurumların) siyahısı müəyyən edildiyi gün həmin orqanlara (qurumlara) müraciət edir. Sifarişçi tərəfindən edilmiş müraciətə və təqdim olunmuş sənədlərə həmin orqanlar (qurumlar) 3 (üç) gündən gec olmayaraq münasibət bildirməlidirlər. Həmin orqanlar (qurumlar) tərəfindən münasibət bildirilərkən, enerji təchizatı layihəsində nəzərə alınması üçün trassanın (yolun) razılaşdırılmasına aid texniki tələblər ayrıca qeyd olunur. Bu bəndin üçüncü cümləsində göstərilən müddət ərzində münasibət bildirilmədikdə məsələ razılaşdırılmış hesab edilir.

4.12. Enerji təchizatı layihəsinin hazırlanması, həmçinin elektrik xətlərinin çəkilməsi və tikinti-quraşdırma işləri sifarişçinin seçdiyi podratçı tərəfindən sifarişçinin vəsaiti hesabına həyata keçirilir.

4.13. Sifarişçi enerji təchizatı layihəsini razılaşdırılması üçün DEM-ə və ya ETM-ə təqdim edir. DEM və ya ETM tərəfindən 3 (üç) gün müddətində münasibət

bildirilmədikdə enerji təchizatı layihəsi razılaşdırılmış hesab edilir. DEM-in və ya ETM-in rəyləri əsasında sifarişçi tərəfindən enerji təchizatı layihəsində müvafiq dəyişikliklər edildikdən sonra bu bəndin tələblərinə uyğun olaraq enerji təchizatı layihəsi yenidən razılaşdırılır.

4.14. Elektrik xətlərinin çəkilməsi və tikinti-quraşdırma işləri yerinə yetirildikdən sonra sifarişçi DEM-ə və ya ETM-ə bu barədə kağız daşıyıcıda məlumat verir və ya həmin məlumatı Sistemə yerləşdirir.

4.15. Bu Qaydanın 4.14-cü bəndində nəzərdə tutulmuş işlər yerinə yetirildikdən sonra 2 (iki) gün müddətində ETM-in və ya DEM-in nümayəndələrinin, sifarişçinin və podratçının iştirakı ilə görülən işlərə baxış keçirilir və texniki şərtlərin, enerji təchizatı layihəsinin və "Elektrik qurğularının quraşdırılması Qaydası"nın tələblərinin tam yerinə yetirilməsi müəyyən edildiyi halda, təhvil-təslim aktı imzalanır və kontur torpaqlama müqavimətinin ölçülməsi protokolu, transformatorun və avadanlıqların sınaq-sazlama protokolu və elektrik veriliş xəttinin sınaq protokolu və qapalı işlər aktı tikinti-quraşdırma işlərini həyata keçirən podratçı tərəfindən, elektrik sayğacının quraşdırılması aktı isə ETM tərəfindən sifarişçiyə təqdim edilir. Bu Qaydanın 4.16-cı bəndində nəzərdə tutulan hallar istisna olmaqla digər tikinti obyektləri üçün həmin gün ETM və ya DEM ilə sifarişçi arasında 2 (iki) nüsxədə qoşulma aktı və "Elektrik enerjisindən istifadə Qaydaları"na uyğun olaraq elektrik enerjisinin alqı-satqı müqaviləsi imzalanır, həmin sənədlər Sistemə yerləşdirilir və kağız daşıyıcıda sifarişçiyə təqdim edilir, DEM və ya ETM istehsal olunan elektrik enerjisinin öz elektrik şəbəkəsi vasitəsilə ötürülməsini (paylanmasını) təmin edir.

4.16. Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi güc həddindən yuxarı elektrik qurğularının istismarına buraxılış aktı tələb edildiyi hallarda bu Qaydanın 4.15-ci bəndində qeyd edilən təhvil-təslim aktı alındıqdan sonra 3 (üç) gün müddətində Agentlik tərəfindən "Elektrik enerjisindən istifadə Qaydaları"nın və Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 16 iyul tarixli 204 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahəsində nəzarətin həyata keçirilməsi Qaydası"nın tələblərinə uyğun olaraq sifarişçinin, podratçının və tikinti obyektinin qoşulması nəzərdə tutulan elektrik şəbəkəsindən asılı olaraq DEM-in və ya ETM-in nümayəndələrinin iştirakı ilə görülən işlərə baxış keçirilir və texniki şərtlərin, enerji təchizatı layihəsinin və "Elektrik qurğularının quraşdırılması Qaydası"nın tələblərinin tam yerinə yetirilməsi müəyyən edildiyi halda, istismara buraxılış aktı verilir, sifarişçi ilə DEM və ya ETM arasında 2 (iki) nüsxədə qoşulma aktı imzalanır, "Elektrik enerjisindən istifadə Qaydaları"na uyğun olaraq elektrik enerjisinin alqı-satqı müqaviləsi bağlanılır, həmin sənədlər Sistemə yerləşdirilir və kağız daşıyıcıda sifarişçiyə təqdim edilir və DEM və ya ETM istehsal olunan elektrik enerjisinin öz elektrik şəbəkəsi vasitəsilə ötürülməsini (paylanmasını) təmin edir.

4.17. Qoşulma müqaviləsi və onun tərkib hissəsi olan texniki şərtlər bu Qaydanın 5 nömrəli əlavəsi, qoşulma aktı isə bu Qaydanın 6 nömrəli əlavəsi ilə müəyyən olunan formada tərtib edilir.

4.18. Bu Qaydanın 4.15-ci və 4.16-cı bəndlərində nəzərdə tutulmuş hallarda baxış keçirilərkən elektrik xətlərinin çəkilməsi və tikinti-quraşdırma işlərinin texniki şərtlərə, enerji təchizatı layihəsinə və "Elektrik qurğularının quraşdırılması Qaydası"nın tələblərinə

uyğun aparılmadığı müəyyən olunduqda, bu Qaydanın 4.15-ci bəndində nəzərdə tutulmuş hallarda ETM və ya DEM tərəfindən sifarişçiyə və podratçıya, bu Qaydanın 4.16-cı bəndində nəzərdə tutulmuş hallarda isə Agentlik tərəfindən sifarişçiyə və podratçıya 2 (iki) gün müddətində aradan qaldırılmalı çatışmazlıqlar göstərilməklə əsaslandırılmış cavab verilir.

4.19. Elektrik xətlərini çəkən və tikinti-quraşdırma işlərini yerinə yetirən podratçı 2 (iki) gün müddətində bu Qaydanın 4.18-ci bəndinə uyğun olaraq verilən cavabda qeyd olunan çatışmazlıqları aradan qaldırır və görülən işlərə bu Qaydanın 4.15-ci və 4.16-cı bəndlərinə uyğun olaraq yenidən baxış keçirilir.

4.20. Elektrik xətlərini çəkən və tikinti-quraşdırma işlərini yerinə yetirən podratçı qeyd olunan çatışmazlıqlarla razılaşmadıqda, inzibati və məhkəmə qaydasında şikayət edə bilər.

"Tikinti obyektlərinin elektrik şəbəkəsinə qoşulması və ya əlavə enerji (güc) alması Qaydası"na

**1 nömrəli əlavə**

**Məişət abonentlərinin və tələb olunan gücü *200* kVt-a qədər (*200* kVt da daxil olmaqla mövcud 0,4 kV-luq şəbəkədən) olan mövcud və ya inşa ediləcək tikinti obyektlərinin enerji təchizatı şəbəkəsinə qoşulma müqaviləsi**[4]

_____________ "_____" __________ 20____ il

Biz, aşağıda imza edənlər

______________________________________________________________________

Sifarişçi _______________________________________________________________

______________________________________________________________________şəxsində və

(soyadı, adı, atasının adı)

Enerji təchizatı müəssisəsi (ETM) adından

______________________________________________________________________ şəxsində

(vəzifəsi)

______________________________________________________________________

(soyadı, adı, atasının adı)

tərəflər arasında enerji təchizatı şəbəkəsinə (ETŞ-yə) qoşulma müqaviləsi (bundan sonra – **Müqavilə**) bağlanılır.

**1. Müqavilənin şərtləri**

1.1. Bu Müqavilə ilə ETM ETŞ-nin qoşulma üçün hazırlığının və gücləndirilməsinin təmin edilməsi (layihələndirmə, tikinti, yenidənqurma) daxil olmaqla sifarişçinin _________________ ünvanında inşa edilmiş (inşa ediləcək) _____________tikinti obyektinin ETŞ-yə qoşulması öhdəliyini öz üzərinə götürür.

1.2. Qoşulma nöqtəsi texniki şərtlərdə qeyd olunmuşdur və sifarişçinin ETŞ-yə qoşulması nəzərdə tutulan tikinti obyektinin yerləşdiyi (yerləşəcəyi) ərazinin sərhədindən _____________ metr məsafədə yerləşir.

1.3. Texniki şərtlər bu Müqavilənin ayrılmaz tərkib hissəsidir.

1.4. Texniki şərtlərin qüvvədəolma müddəti bu Müqavilənin bağlanıldığı tarixdən etibarən _____ ildir.

**2. Tərəflərin öhdəlikləri**

2.1. ETM-in öhdəlikləri:

2.1.1. tikinti obyektindən və ya tikinti obyektinin yerləşdiyi (yerləşəcəyi) torpaq sahəsindən ETŞ-yə qoşulma nöqtəsinədək elektrik xətlərinin çəkilməsini və tikinti-quraşdırma işlərini həyata keçirmək;

2.1.2. elektrik xətlərinin çəkilməsi və tikinti-quraşdırma işlərinin yerinə yetirildiyi gün sifarişçi ilə 2 (iki) nüsxədə qoşulma aktı, elektrik enerjisinin alqı-satqı müqaviləsini bağlamaq, həmin sənədləri kağız daşıyıcıda sifarişçiyə təqdim etmək və həmin gün Kommunal Xidmətlərin Vahid İnformasiya Sisteminə (Sistemə) yerləşdirmək, o cümlədən texniki şərtlər və enerji təchizatı layihəsini Sistemə yerləşdirmək və ya kağız daşıyıcıda sifarişçiyə təqdim etmək və elektrik enerjisinin verilməsini təmin etmək.

2.2. Sifarişçinin öhdəlikləri:

2.2.1. ETM sifarişçinin tikinti obyektinin ETŞ-yə fiziki qoşulmasını həyata keçirdikdən sonra qoşulma aktını imzalamaq.

**3. Müqavilədə dəyişiklik edilməsi və Müqavilənin ləğv edilməsi şərtləri**

3.1. Bu Müqavilədə tərəflərin yazılı razılığı ilə dəyişiklik edilə bilər.

3.2. Bu Müqavilə Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulmuş əsaslarla tərəflərdən birinin tələbi ilə və ya tərəflərin qarşılıqlı razılığı ilə ləğv edilə bilər.

**İmzalar:**

ETM adından ____________________________________________

Sifarişçi ________________________________________________

“Məişət abonentlərinin və tələb olunan gücü *200* kVt-a qədər (*200* kVt da daxil olmaqla mövcud 0,4 kV-luq şəbəkədən) olan mövcud və ya inşa ediləcək tikinti obyektlərinin enerji təchizatı şəbəkəsinə qoşulma müqaviləsi”nə

**əlavə**

**Elektrik enerjisi (gücü) alınması üçün**

**TEXNİKİ ŞƏRTLƏR № ______**

“_____” _______________ 20 ___ il

_______________________________________________________________________________

(texniki şərtləri alan fiziki şəxsin soyadı, adı, atasının adı, ünvanı, hüquqi şəxsin adı, hüquqi ünvanı)

_______________________________________________________________________________

(müraciət sənədinin daxilolma nömrəsi və tarixi)

Sifarişçinin tikinti obyektinin ETŞ-yə qoşulması:

1. Tələb olunan (aktiv və reaktiv) güc _______________________________________________
2. Qoşulma gərginliyi _________________________________________________________
3. Elektrik təchizatının etibarlılığına görə kateqoriyası_______________________________
4. Qoşulma nöqtəsi

_______________________________________________________________________________

(yarımstansiya, transformator məntəqəsi, elektrik xətti və ya paylayıcı lövhə)

5. İstehlakçı qrupu ___________________________________________________________
6. Uçot cihazları_____________________________________________________________
7. Uçot cihazlarının quraşdırılma nöqtəsi __________________________________________
8. Tikinti obyektinin təyinatı____________________________________________________

**Təsdiq edirəm**

Texniki şərti verən ETM

_______________________________________________________________________________

_______________________________________________________________________________

“____”____________ 20____ il

**M.Y.**

“Tikinti obyektlərinin elektrik şəbəkəsinə qoşulması və ya əlavə enerji (güc) alması Qaydası”na

**2 nömrəli əlavə**

**Məişət abonentlərinin və tələb olunan gücü *200* kVt-a qədər(*200* kVt da daxil olmaqla mövcud 0,4 kV-luq şəbəkədən) olan mövcud və ya inşa ediləcək tikinti obyektlərinin enerji təchizatı şəbəkəsinə qoşulma**

**AKTI**[5]

______ __________ 20_____ il                                        _________ şəhəri (rayonu)

Biz, aşağıda imza edənlər:

1. ETM-in nümayəndəsi

________________________________________________________________________________

(vəzifəsi, soyadı, adı, atasının adı)

2. Sifarişçi

________________________________________________________________________________

(soyadı, adı, atasının adı)

________________________________________________________________________________

(tikinti obyektinin yerləşdiyi ünvan)

ünvanında yerləşən tikinti obyektinədək quraşdırılmış elektrik xətlərinə və qurğularına baxış keçirdik. Elektrik xətlərinin və qurğularının texniki şərtlərə, enerji təchizatı layihəsinə və “Elektrik qurğularının quraşdırılması Qaydası”nın tələblərinə uyğun quraşdırıldığı və elektrik şəbəkəsinə qoşulmaq üçün hazır olduğu müəyyən edildi.

Enerji təchizatı layihəsi №_______________ _______________tarixində verilmişdir.
Qeyd edilənləri nəzərə alaraq, tikinti obyektinin ETŞ-yə qoşulmasına qərar verildi.
Qoşulma başa çatdırıldı ___________________ ______________________

(saat) (tarix)

ETM ilə sifarişçi arasında elektrik qurğularının balans mənsubiyyəti sərhədi aşağıdakı kimi müəyyən edildi:

________________________________________________________________________________

(balans mənsubiyyəti sərhədinin müəyyən olunduğu yer)

________________________________________________________________________________

İmzalar:

_____________________ _____________________________________

(soyadı, adı)

_____________________ _____________________________________

(soyadı, adı)

**M.Y.**

“Tikinti obyektlərinin elektrik şəbəkəsinə qoşulması və ya əlavə enerji (güc) alması Qaydası”na

**3 nömrəli əlavə**

**Tələb olunan gücü *200* kVt-a qədər (orta və yüksəkgərginlikli şəbəkədən) və *200* kVt-dan yuxarı olan mövcud və ya inşa ediləcək tikinti obyektlərinin, elektrik enerjisi paylayıcılarının tikinti obyektlərinin elektrik şəbəkəsinə qoşulması müqaviləsi**[6]

___________ “____” _________ 20 ___ il

Biz, aşağıda imza edənlər

_______________________________________________________________________________

Sifarişçi _________________________________________________________________

_____________________________________________________________________şəxsində və
(soyadı, adı, atasının adı)

Texniki şərti verən müəssisə adından
_____________________________________________________________________ şəxsində
(vəzifəsi)

_______________________________________________________________________________
(soyadı, adı, atasının adı)

tərəflər arasında elektrik şəbəkəsinə qoşulma müqaviləsi (bundan sonra – **Müqavilə**) bağlanılır.

**1. Müqavilənin şərtləri**

1.1. Bu Müqavilə ilə ETM (DEM) elektrik şəbəkəsinin qoşulma üçün hazırlığının və gücləndirilməsinin (elektrik enerjisi paylayıcısının tikinti obyektinin elektrik şəbəkəsinə qoşulması halı istisna olmaqla) təmin edilməsi (layihələndirmə, tikinti, yenidənqurma) daxil olmaqla sifarişçinin ________________________ ünvanında inşa edilmiş (inşa ediləcək) _____________tikinti obyektinin elektrik şəbəkəsinə qoşulması öhdəliyini öz üzərinə götürür.

1.2. Qoşulma nöqtəsi texniki şərtlərdə qeyd olunmuşdur və sifarişçinin elektrik şəbəkəsinə qoşulması nəzərdə tutulan tikinti obyektinin yerləşdiyi (yerləşəcəyi) ərazinin sərhədindən _________ metr məsafədə yerləşir.

1.3. Texniki şərtlər bu Müqavilənin ayrılmaz tərkib hissəsidir.

1.4. Texniki şərtlərin qüvvədəolma müddəti bu Müqavilənin bağlanıldığı tarixdən etibarən _____ ildir.

## 2. Tərəflərin öhdəlikləri

2.1. ETM-in (DEM-in) öhdəlikləri:

2.1.1. "Tikinti obyektlərinin elektrik şəbəkəsinə qoşulması və ya əlavə enerji (güc) alması Qaydası"nın (bundan sonra - **Qayda**) 3.7-ci və 3.12-ci bəndlərində nəzərdə tutulmuş hallarda bu Müqavilənin 2.2.2-ci yarımbəndində qeyd olunan müvafiq vəsait ETM-in (DEM-in) bank hesabına köçürüldükdən sonra 20 (iyirmi) gün müddətində enerji təchizatı layihəsini hazırlamaq, _________ gün müddətində tikinti obyektindən və ya tikinti obyektinin yerləşdiyi (yerləşəcəyi) torpaq sahəsindən elektrik şəbəkəsinə qoşulma nöqtəsinədək elektrik xətlərinin çəkilməsi və tikinti-quraşdırma işlərini yerinə yetirmək;

2.1.2. elektrik xətlərinin çəkilməsi və tikinti-quraşdırma işləri yerinə yetirildikdən sonra görülən işlərə baxış keçirilməsində iştirak etmək, qoşulma aktını, sifarişçi ilə elektrik enerjisinin alqı-satqı müqaviləsini imzalamaq, həmin sənədləri Kommunal Xidmətlərin Vahid İnformasiya Sisteminə (Sistemə) yerləşdirmək və kağız daşıyıcıda sifarişçiyə təqdim etmək və elektrik enerjisinin verilməsini təmin etmək.

2.2. Sifarişçinin öhdəlikləri:

2.2.1. bu Müqavilədə nəzərdə tutulmuş öhdəlikləri yerinə yetirmək;

2.2.2. Qaydanın 3.7-ci bəndində nəzərdə tutulan hallarda enerji təchizatı layihəsinin hazırlanması üçün və 3.12-ci bəndində nəzərdə tutulmuş hallarda ETM (DEM) tərəfindən hazırlanmış smeta sənədlərinə əsasən müəyyən edilmiş vəsaiti ETM-in (DEM-in) bank hesabına köçürmək;

2.2.3. Qaydanın 3.13-cü bəndində nəzərdə tutulmuş işləri yerinə yetirdikdən sonra ETM-ə (DEM-ə) bu barədə kağız daşıyıcıda məlumat vermək və ya həmin məlumatı Sistemdə qeyd etmək;

2.2.4. görülən işlərə ETM (DEM) tərəfindən baxış keçirilməsində iştirak etmək;

2.2.5. ETM (DEM) sifarişçinin tikinti obyektinin elektrik şəbəkəsinə fiziki qoşulmasını həyata keçirdikdən sonra qoşulma aktını imzalamaq.

## 3. Müqavilədə dəyişiklik edilməsi və Müqavilənin ləğv edilməsi şərtləri

3.1. Bu Müqavilədə tərəflərin yazılı razılığı ilə dəyişiklik edilə bilər.

3.2. Bu Müqavilə Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulmuş əsaslarla tərəflərdən birinin tələbi ilə və ya tərəflərin qarşılıqlı razılığı ilə ləğv edilə bilər.

**İmzalar:**

ETM adından ____________________________________________

Sifarişçi ________________________________________________

“Tələb olunan gücü *200* kVt-a qədər (orta və yüksəkgərginlikli şəbəkədən) və *200* kVt-dan yuxarı olan mövcud və ya inşa ediləcək tikinti obyektlərinin, elektrik enerjisi paylayıcılarının tikinti obyektlərinin elektrik şəbəkəsinə qoşulma müqaviləsi”nə

**əlavə**

**Elektrik enerjisi (gücü) alınması üçün**

**TEXNİKİ ŞƏRTLƏR № _______**

**“_____” _______________ 20 __ il**

_____________________________________________________________________________

(texniki şərtləri alan fiziki şəxsin soyadı, adı, atasının adı, ünvanı, hüquqi şəxsin adı, hüquqi ünvanı)

_____________________________________________________________________________

(müraciət sənədinin daxilolma nömrəsi və tarixi)

Sifarişçinin tikinti obyektinin elektrik şəbəkəsinə qoşulması:
1. Tələb olunan (aktiv və reaktiv) güc _____________________________________________
2. Qoşulma gərginliyi _________________________________________________________
3. Elektrik təchizatının etibarlılığına görə kateqoriyası ______________________________
4. Qoşulma nöqtəsi

_____________________________________________________________________________

(yarımstansiya, transformator məntəqəsi, elektrik xətti və ya paylayıcı lövhə)

5. İstehlakçı qrupu ____________________________________________________________
6. Uçot cihazları _____________________________________________________________
7. Uçot cihazlarının quraşdırılma nöqtəsi _________________________________________
8. Tikinti obyektinin təyinatı____________________________________________________
9. Elektrik enerjisi paylayıcısının tikinti obyektinin elektrik şəbəkəsinə qoşulması zamanı elektrik şəbəkəsinin gücləndirilməsinə dair tələblər___________________________________
____________________________________________________________________________

**Təsdiq edirəm**

Texniki şərti verən müəssisə

_____________________________________________________________________________

_____________________________________________________________________________

“___”_________ 20____ il

**M.Y.**

"Tikinti obyektlərinin elektrik şəbəkəsinə qoşulması və ya əlavə enerji (güc) alması Qaydası"na

**4 nömrəli əlavə**

**Tələb olunan gücü *200* kVt-a qədər (orta və yüksəkgərginlikli şəbəkədən) və *200* kVt-dan yuxarı olan mövcud və ya inşa ediləcək tikinti obyektlərinin, elektrik enerjisi paylayıcılarının tikinti obyektlərinin elektrik şəbəkəsinə qoşulma**

**AKTI**[7]

"___" _________ 20_____ il                    ________ şəhəri (rayonu)

Biz, aşağıda imza edənlər:

1. Texniki şərti verən müəssisənin nümayəndəsi

________________________________________________________________________

(vəzifəsi, soyadı, adı, atasının adı)

2. Sifarişçi

________________________________________________________________________

(soyadı, adı, atasının adı)

________________________________________________________________________

(tikinti obyektinin yerləşdiyi ünvan)

ünvanında yerləşən tikinti obyektinədək quraşdırılmış elektrik xətlərinə və qurğularına baxış keçirdik. Elektrik xətlərinin və qurğularının texniki şərtlərə, enerji təchizatı layihəsinə və "Elektrik qurğularının quraşdırılması Qaydası"nın tələblərinə uyğun quraşdırıldığı və elektrik şəbəkəsinə qoşulmaq üçün hazır olduğu müəyyən edildi.

Enerji təchizatı layihəsi №____________ ___________ tarixində verilmişdir.

Qeyd edilənləri nəzərə alaraq, tikinti obyektinin elektrik şəbəkəsinə qoşulmasına qərar verildi.

Qoşulma başa çatdırıldı ________________ _________________

(saat) (tarix)

ETM (DEM) ilə sifarişçi arasında elektrik qurğularının balans mənsubiyyəti sərhədi aşağıdakı kimi müəyyən edildi:

________________________________________________________________________

(balans mənsubiyyəti sərhədinin müəyyən olunduğu yer)

İmzalar:

______________________ ___________________________________

(soyadı, adı)

______________________ ___________________________________

(soyadı, adı)

**M.Y.**

"Tikinti obyektlərinin elektrik şəbəkəsinə qoşulması və ya əlavə enerji (güc) alması Qaydası"na

**5 nömrəli əlavə**

**Enerji istehsalçılarının elektrik enerjisi istehsal edən tikinti obyektlərinin elektrik şəbəkəsinə qoşulma müqaviləsi**

___________ "_____" _________ 20 ___ il

Biz, aşağıda imza edənlər

________________________________________________________________________________

Sifarişçi ____________________________________________________________________

______________________________________________________________________şəxsində və
(soyadı, adı, atasının adı)

Texniki şərti verən müəssisə_______________________________________________________

Texniki şərti verən müəssisə adından
_______________________________________________________________________ şəxsində
(vəzifəsi)

________________________________________________________________________________
(soyadı, adı, atasının adı)

tərəflər arasında elektrik şəbəkəsinə qoşulma müqaviləsi (bundan sonra – **Müqavilə**) bağlanılır.

## 1. Müqavilənin şərtləri

1.1. Bu Müqavilə ilə texniki şərti verən müəssisə sifarişçinin ____________________ ünvanında inşa edilmiş (inşa ediləcək) _____________ enerji istehsalçısının elektrik enerjisi istehsal edən tikinti obyektinin elektrik şəbəkəsinə qoşulması öhdəliyini öz üzərinə götürür.

1.2. Qoşulma nöqtəsi texniki şərtlərdə qeyd olunmuşdur və sifarişçinin elektrik şəbəkəsinə qoşulması nəzərdə tutulan enerji istehsalçısının elektrik enerjisi istehsal edən tikinti obyektinin yerləşdiyi (yerləşəcəyi) ərazinin sərhədindən ________ metr məsafədə yerləşir.

1.3. Texniki şərtlər bu Müqavilənin ayrılmaz tərkib hissəsidir.

1.4. Texniki şərtlərin qüvvədəolma müddəti bu Müqavilənin bağlanıldığı tarixdən etibarən _____ ildir.

## 2. Tərəflərin öhdəlikləri

2.1. Texniki şərti verən müəssisənin öhdəlikləri:

2.1.1. elektrik xətlərinin çəkilməsi və tikinti-quraşdırma işləri yerinə yetirildikdən

sonra görülən işlərə baxış keçirilməsində iştirak etmək, sifarişçi ilə 2 (iki) nüsxədə qoşulma aktını və elektrik enerjisinin alqı-satqı müqaviləsini imzalamaq, həmin sənədləri Kommunal Xidmətlərin Vahid İnformasiya Sisteminə (Sistemə) yerləşdirmək və kağız daşıyıcıda sifarişçiyə təqdim etmək və istehsal olunan elektrik enerjisinin elektrik şəbəkəsi vasitəsilə ötürülməsini (paylanmasını) təmin etmək.

2.2. Sifarişçinin öhdəlikləri:

2.2.1. bu Müqavilədə nəzərdə tutulmuş öhdəlikləri yerinə yetirmək;

2.2.2. elektrik xətlərinin çəkilməsi və tikinti-quraşdırma işləri yerinə yetirildikdən sonra texniki şərti verən müəssisəyə bu barədə məlumat vermək;

2.2.3. görülən işlərə baxış keçirilməsində iştirak etmək;

2.2.4. texniki şərti verən müəssisə sifarişçinin tikinti obyektinin elektrik şəbəkəsinə fiziki qoşulmasını həyata keçirdikdən sonra qoşulma aktını imzalamaq.

**3. Müqavilədə dəyişiklik edilməsi və Müqavilənin ləğv edilməsi şərtləri**

3.1. Bu Müqavilədə tərəflərin yazılı razılığı ilə dəyişiklik edilə bilər.

3.2. Bu Müqavilə Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulmuş əsaslarla tərəflərdən birinin tələbi ilə və ya tərəflərin qarşılıqlı razılığı ilə ləğv edilə bilər.

İmzalar:

ETM adından _____________________________________________

Sifarişçi __________________________________________________

“Enerji istehsalçılarının elektrik enerjisi istehsal edən tikinti obyektlərinin elektrik şəbəkəsinə qoşulma müqaviləsi”nə

**əlavə**

**TEXNİKİ ŞƏRTLƏR № ______**

**“_____” ______________ 20 __ il**

_______________________________________________________________________________

(texniki şərtləri alan fiziki şəxsin soyadı, adı, atasının adı, ünvanı, hüquqi şəxsin adı, hüquqi ünvanı)

_______________________________________________________________________________

(müraciət sənədinin daxilolma nömrəsi və tarixi)

Sifarişçinin tikinti obyektinin elektrik şəbəkəsinə qoşulması:

1. İstehsal olunan güc ________________________________________________________
2. Qoşulma gərginliyi ________________________________________________________
3. Qoşulma nöqtəsi __________________________________________________________

_______________________________________________________________________________

(yarımstansiya, transformator məntəqəsi, elektrik xətti və ya paylayıcı lövhə)

4. Uçot cihazları_____________________________________________________________
5. Uçot cihazlarının quraşdırılma nöqtəsi __________________________________________
6. Tikinti obyektinin təyinatı___________________________________________________

**Təsdiq edirəm:**

Texniki şərti verən müəssisə

_______________________________________________________________________________

_______________________________________________________________________________

“____”__________ 20____ il

**M.Y.**

“Tikinti obyektlərinin elektrik şəbəkəsinə qoşulması və ya əlavə enerji (güc) alması Qaydası”na

**6 nömrəli əlavə**

**Enerji istehsalçılarının elektrik enerjisi istehsal edən tikinti obyektlərinin elektrik şəbəkəsinə qoşulma**

**AKTI**

“____” ________ 20_____ il ___________ şəhəri (rayonu)

Biz, aşağıda imza edənlər:

1. Texniki şərti verən müəssisənin nümayəndəsi

______________________________________________________________________

(vəzifəsi, soyadı, adı, atasının adı)

2. Sifarişçi

______________________________________________________________________

(soyadı, adı, atasının adı)

______________________________________________________________________

(tikinti obyektinin yerləşdiyi ünvan)

ünvanında yerləşən tikinti obyektinədək quraşdırılmış elektrik xətlərinə və qurğularına baxış keçirdik. Elektrik xətlərinin və qurğularının texniki şərtlərə, enerji təchizatı layihəsinə və “Elektrik qurğularının quraşdırılması Qaydası”nın tələblərinə uyğun quraşdırıldığı və elektrik şəbəkəsinə qoşulmaq üçün hazır olduğu müəyyən edildi.

Enerji təchizatı layihəsi №___________ __________tarixində verilmişdir.

Qeyd edilənləri nəzərə alaraq, tikinti obyektinin elektrik şəbəkəsinə qoşulmasına qərar verildi.

Qoşulma başa çatdırıldı ________________ _________________

(saat) (tarix)

Texniki şərti verən müəssisə ilə sifarişçi arasında elektrik qurğularının balans mənsubiyyəti sərhədi aşağıdakı kimi müəyyən edildi:

______________________________________________________________________

(balans mənsubiyyəti sərhədinin müəyyən olunduğu yer)

______________________________________________________________________

İmzalar:

____________________ ______________________________

(soyadı, adı)

____________________ ______________________________

(soyadı, adı)

**M.Y.**

“Tikinti obyektlərinin elektrik şəbəkəsinə qoşulması və ya əlavə enerji (güc) alması Qaydası”na

**7 nömrəli əlavə**

**Trassanın (yolun) razılaşdırılması ilə bağlı rəyinin alınması tələb olunan orqanların (qurumların)**

**SİYAHISI**

1. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi (bu siyahının 5-ci, 15-ci və 19-cu hissələrində nəzərdə tutulanlar istisna olmaqla, qoruqların və abidələrin mühafizə zonalarının ərazisinə münasibətdə).

2. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi.

3. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi.

*3-1. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi.*[8]

4. Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi.

5. Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi (tabeliyindəki qoruqların və abidələrin mühafizə zonalarının ərazisinə münasibətdə).

6. Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti.

7. Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti.

8. Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi.

9. Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi.

10. Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi.

11. Müvafiq inzibati ərazi vahidi üzrə yerli icra hakimiyyəti orqanı.

12. Müvafiq inzibati ərazi vahidi üzrə yerli özünüidarəetmə orqanı.

13. Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti.

14. “Azəristiliktəchizat” Açıq Səhmdar Cəmiyyəti.

15. “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi (tabeliyindəki qoruqların və abidələrin mühafizə zonalarının ərazisinə münasibətdə).

16. “Azərenerji” Açıq Səhmdar Cəmiyyəti.

17. “Azərişıq” Açıq Səhmdar Cəmiyyəti.

18. “Azərbaycan Dəmir Yolları” Qapalı Səhmdar Cəmiyyəti.

19. Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi (Şuşa şəhəri ərazisinə münasibətdə).

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 24 fevral 2024-cü il tarixli **99** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024-cü il, № 2, maddə 230)**
2. 14 mart 2024-cü il tarixli **156** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 15 mart 2024-cü il, "Xalq" qəzeti, 20 mart 2024-cü il, № 62, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024-cü il, № 3, maddə 333)**
3. 9 iyul 2024-cü il tarixli **332** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 10 iyul 2024-cü il, "Xalq" qəzeti, 14 iyul 2024-cü il, № 146, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024-cü il, №7, maddə 893)**

## QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 24 fevral 2024-cü il tarixli **99** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024-cü il, № 2, maddə 230)** ilə 6-cı hissə ləğv edilmişdir.

[2] 14 mart 2024-cü il tarixli **156** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 15 mart 2024-cü il, "Xalq" qəzeti, 20 mart 2024-cü il, № 62, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024-cü il, № 3, maddə 333)** ilə "Tikinti obyektlərinin elektrik şəbəkəsinə qoşulması və ya əlavə enerji (güc) alması Qaydası"nın 1.1.1-ci (hər iki halda) və 1.1.2-ci (hər iki halda) yarımbəndlərində, 1.9-cu bəndində, 2-ci hissənin adında (hər iki halda), 2.1-ci (hər iki halda) və 2.21-ci bəndlərində (hər iki halda), 3-cü hissənin adında (hər iki halda), 3.1-ci bəndində (hər iki halda) "**150**" rəqəmləri "**200**" rəqəmləri ilə əvəz edilmişdir.

[3] 14 mart 2024-cü il tarixli **156** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 15 mart 2024-cü il, "Xalq" qəzeti, 20 mart 2024-cü il, № 62, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024-cü il, № 3, maddə 333)** ilə "Tikinti obyektlərinin elektrik şəbəkəsinə qoşulması və ya əlavə enerji (güc) alması Qaydası"nın 1.3-cü bəndinə yeni məzmunda ikinci cümlə əlavə edilmişdir.

[4] 14 mart 2024-cü il tarixli **156** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 15 mart 2024-cü il, "Xalq" qəzeti, 20 mart 2024-cü il, № 62, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024-cü il, № 3, maddə 333)** ilə "Tikinti obyektlərinin elektrik şəbəkəsinə qoşulması və ya əlavə enerji (güc) alması Qaydası"na 1 nömrəli əlavə - "Məişət abonentlərinin və tələb olunan gücü 150 kVt-a qədər (150 kVt da daxil olmaqla mövcud 0,4 kV-luq şəbəkədən) olan mövcud və ya inşa ediləcək tikinti obyektlərinin enerji təchizatı şəbəkəsinə qoşulma müqaviləsi"nin adında (hər iki halda) və həmin 1 nömrəli əlavənin əlavəsində (hər iki halda) "**150**" rəqəmləri "**200**" rəqəmləri ilə əvəz edilmişdir.

[5] 14 mart 2024-cü il tarixli **156** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 15 mart 2024-cü il, "Xalq" qəzeti, 20 mart 2024-cü il, № 62, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024-cü il, № 3, maddə 333)** ilə "Tikinti obyektlərinin elektrik şəbəkəsinə qoşulması və ya əlavə enerji (güc) alması Qaydası"na 2 nömrəli əlavə - "Məişət abonentlərinin və tələb olunan gücü 150 kVt-a qədər (150 kVt da daxil olmaqla mövcud 0,4 kV-luq şəbəkədən) olan mövcud və ya inşa ediləcək tikinti obyektlərinin enerji təchizatı şəbəkəsinə qoşulma aktı"nın adında (hər iki halda) "**150**" rəqəmləri "**200**" rəqəmləri ilə əvəz edilmişdir.

[6] 14 mart 2024-cü il tarixli **156** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 15 mart 2024-cü il, "Xalq" qəzeti, 20 mart 2024-cü il, № 62, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024-cü il, № 3, maddə 333)** ilə "Tikinti obyektlərinin elektrik şəbəkəsinə qoşulması və ya əlavə enerji (güc) alması Qaydası"na 3 nömrəli əlavə - "Tələb olunan gücü 150 kVt-a qədər (orta və yüksəkgərginlikli şəbəkədən) və 150 kVt-dan yuxarı olan mövcud və ya inşa ediləcək tikinti obyektlərinin, elektrik enerjisi paylayıcılarının tikinti obyektlərinin elektrik şəbəkəsinə qoşulması müqaviləsi"nin adında (hər iki halda) və həmin 3 nömrəli əlavənin əlavəsində (hər iki halda) "**150**" rəqəmləri "**200**" rəqəmləri ilə əvəz edilmişdir.

[7] 14 mart 2024-cü il tarixli **156** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 15 mart 2024-cü il, "Xalq" qəzeti, 20 mart 2024-cü il, № 62, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024-cü il, № 3, maddə 333)** ilə "Tikinti obyektlərinin elektrik şəbəkəsinə qoşulması və ya əlavə enerji (güc) alması Qaydası"na 4 nömrəli əlavə - "Tələb olunan gücü 150 kVt-a qədər (orta və yüksəkgərginlikli şəbəkədən) və 150 kVt-dan yuxarı olan mövcud və ya inşa ediləcək tikinti obyektlərinin, elektrik enerjisi paylayıcılarının tikinti obyektlərinin elektrik şəbəkəsinə qoşulma aktı"nın adında (hər iki halda) "**150**" rəqəmləri "**200**" rəqəmləri ilə əvəz edilmişdir.

[8] 9 iyul 2024-cü il tarixli **332** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 10 iyul 2024-cü il, "Xalq" qəzeti, 14 iyul 2024-cü il, № 146, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024-cü il, №7, maddə 893)** ilə "Tikinti obyektlərinin elektrik şəbəkəsinə qoşulması və ya əlavə enerji (güc) alması Qaydası"na 7 nömrəli əlavə - "Trassanın (yolun) razılaşdırılması ilə bağlı rəyinin alınması tələb olunan orqanların (qurumların) Siyahısı"na yeni məzmunda 3-1-ci hissə əlavə edilmişdir.